

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## İslam dünyasından Şuşaya açılan qapı




7


SƏS

№ 219 (6902)

30 noyabr 2023-cü il.
Qiyməti 60 qəpik


# Prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib



2

# YUNESCO adlı qurumdan QƏRƏZLİ MÖVQE VƏ MÜNASİBƏT




5

## İnternetdə təhqir edəndə iki dəfə düşünün!



10

## Körpələrinizdən ana südünü əsirgəməyin



13

## "Efir mədəniyyəti aşağı olanlara qarşı tədbir görmək lazımdır"



15

## Hərbi qulluqçuların pensiya yaşı niyə artırılır?



16

## Sosial şəbəkələr: Bizə və gələcəyimizə qənim kəsilən düşmən!



6

# Prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.**

Dövlətimizin başçısına məlumat verildi ki, inşasına 2021-ci ilin martında başlanmış inzibati binaların tikintisi bu ilin avqustunda yekunlaşıb. İnşaat işləri müasir standartlara uyğun aparılıb, binalar bütün zəruri avadanlıq və inventarlarla təmin olunub, burada əməkdaşların xidməti fəaliyyətlərini səmərəli həyata keçirmələri üçün hər cür şərait yaradılıb.

Əvvəlcə foyedə quraşdırılmış monitorda son illər ərzində Dövlət Təhlükəsizliyi Xidmətinin mərkəzi aparatında və ərazi orqanlarında aparılan əsaslı tikinti-quruculuq işlərindən bəhs edən videoçarx nümayiş olunub.











Bildirildi ki, binanın giriş hissəsində Ümummilli Lider, Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, bu orqanların inkişafında müstəsna xidmətləri olan Heydər Əliyevin barelyefi qoyulub, Ulu Öndərin arxiv sənədlərinin nümayiş olunduğu guşə və dahi şəxsiyyətin mənalı ömrünün 25 ilini həsr etdiyi təhlükəsizlik orqanlarındakı fəaliyyətini əks etdirən fotoşəkillərdən ibarət stend yaradılıb. Sonra dövlətimizin başçısı xarici xüsusi xidmət orqanları ilə qurulan tərəfdaşlıq münasibətlərinin səviyyəsini və tarixini simvolizə edən muzeydə sərgilənən eksponatlara baxıb.

Qeyd edildi ki, binada Dövlət Təhlükəsizliyi Xidmətinin mərkəzi aparatının bəzi struktur bölmələrinin yerləşdirilməsi nəzərdə tutulur. Bina iş və iclas otaqlarından, rəhbər və şəxsi heyət üçün ikimərtəbəli yeməkxanadan ibarətdir. Dövlətimizin başçısı xidməti otaqlarla və burada əməkdaşlar üçün yaradılan şəraitlə yaxından tanış olub.

Ali Baş Komandan İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı dəstəsinin istifadə etdiyi xüsusi vasitələrə, silahlara, avadanlıqlara, dron cihazlarına və xüsusi təyinatlı avtomobillərə də baxış keçirib. Həmçinin Azərbaycan Prezidentinə digər inzibati binada yerləşən və ən son texnoloji yenilikləri özündə birləşdirən kriminalistika, əməliyyat və şəbəkə idarəetmə mərkəzləri təqdim olunub, cinayət işlərinin təhqiqatı və müvafiq əməliyyat tədbirlərinin həyata keçirilməsi istiqamətində bu mərkəzlərin imkanları barədə məruzə edilib. Prezident İlham Əliyev şəxsi heyətin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmış və müasir idman avadanlıqları ilə təchiz edilmiş mərkəzlə də yaxından tanış olub.

Sonda Prezident İlham Əliyev şəxsi heyətə xidməti fəaliyyətlərində uğurlar arzulayıb, əməkdaşların öz vəzifələrini bundan sonra da layiqincə yerinə yetirəcəklərinə inamını ifadə edib.

# Rusiyalı ekspert: "Fransa artıq Ermənistanı özünün yeni müstəmləkəsinə çevirib"

**İndi Brüssel bir çox hallarda Parisin musiqisi altında "rəqs edir", Fransanın isə Cənubi Qafqazda praktik olaraq öz Napoleon planları var. Yelisey sarayı Nikol Paşinyanın satqınlığından istifadə edərək, faktiki olaraq Ermənistanı özünün yeni müstəmləkəsinə çevirib. Bu fikirləri AZƏRTAC-a rusiyalı politoloq, "PolitRus" ekspert-analitik şəbəkəsinin rəhbəri Vitali Arkov ABŞ və digər Qərb ölkələrinin Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyinin tam bərpa etməsindən sonra Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqları qəbul etmək istəmədikləri ilə bağlı məsələni şərh edərkən söyləyib.**



Agentliyin müsahibi deyib: "Kollektiv Qərb" məfhumu mövcud olsa da və onu təmsil edən dövlətlər birlikdə hərəkət etsələr də, birincisi, proses həmişə könüllülük əsasında (ABŞ-ın öz şərti avropalı tərəfdaşlarını məcbur etməsi halları az deyil) olmur, ikincisi, bu "siyasi bullinqdə" iştirak edən ölkələrin müxtəlif maraqları var. Əgər Avropa İttifaqından söhbət gedirsə, Almaniyada "dəmir" kansler Angela Merkeli Olaf Şoltsun əvəz etməsi ilə bu ölkə Aİ-də əvvəlki təsirini itirib. O vaxt Brüssel Berlinin musiqisi altında "rəqs edirdi". Avropada hökmranlıq etməyi arzulayan Polşa da bütün istəklərinə və oyunlarına baxmayaraq, habelə ABŞ-ın köməyinə rəğmən təşəbbüsü ələ keçirə bilməyib. Ola bilər ki, bu müvəqqətidir. Lakin fakt ondan ibarətdir ki, indi Brüssel bir çox hallarda Parisin müzikli altında "rəqs edir". Əvvəllər də qeyd etdiyimiz kimi, Fransanın özünün praktik olaraq Cənubi Qafqaz regionunda Napoleon planları var. Gördüyünüz kimi, bu gün Yelisey sarayı Nikol Paşinyanın və koalisiyasının satqınlığından istifadə edərək, Ermənistanın faktiki olaraq öz yeni müstəmləkəsinə çevirib.

Politoloqun sözlərinə görə, keçmiş SSRİ məkanında bir çox müstəqil dövlətlərin aldadılaraq cəlb olunduğu "Şərq tərəfdaşlığı" layihəsinin açıqlanmayan hədəflərindən biri də bundan ibarət olub: Avropa İttifaqı onları öz sıralarına qəbul etməyi planlaşdırmır, amma bu dövlətləri siyasi cəhətdən asılı və iqtisadi baxımdan donor ölkələrə çevirmək istəyirdi. Bu təkcə Avropa elitasına xas olan metodlar deyil, ABŞ özü çoxdandır ki, bütün dünyaya münasibətdə onlardan istifadə edir.

Ekspert bildirib: "Azərbaycan rəhbərliyi qarşılıqlı fəaliyyətin bu cür formatını qeyri-mümkün hesab edir. Təkcə bütünlükdə Avropa İttifaqı ilə deyil, həm də onun ayrı-ayrı üzvləri ilə. Hətta ABŞ ilə də belədir. Bu barədə sonra danışacağıq. Bakı ya Rusiya, Türkiyə, Çin və ya İranla olduğu kimi bərabərhüquqlu tərəfdaşlıq təklif edir, ya da Avropa İttifaqı ilə onun Azərbaycana münasibətdə neokolonializm siyasətinin keçməyəcəyini anlayanadək minimal qarşılıqlı fəaliyyəti üstün tutur. Ermənistan iqtisadi cəhətdən bütün region ölkələri arasında daha az cəlbedicidir. Azərbaycan isə, əksinə, acgöz avropalı və xüsusən fransız burjuaziyasını tamah saldığı ən ləzzətli "piroq parçasıdır". Amma onun dadına baxmaq onlara qismət olmayacaq. Əgər İrəvanda olan əlaltılarının əli ilə Bakıya qarşı yeni hərbi münaqişəyə başlamağa cəhd edərlərsə, onda onlar başlarını tutaraq qaçacaqlar".

ABŞ-a gəldikdə, V.Arkovun fikrincə, burada üç məsələ var. Politoloq vurğulayıb: "İrimiqyaslı olandan başlayaq. Birincisi, Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq vəzifəsi var, halbuki, bu zona tarixən onun geosiyasi maraqları çərçivəsində olub. İkincisi, İranın artan gücü həm Yaxın Şərqdə, həm də okeanın o tayında bu ölkənin bir çox opponentlərini narahat edir. Belə ki, Tehran Moskva və Pekin ilə birlikdə yeni çoxqütblü dünya nizamı və şərti Şərqin və şərti Qərbin qlobal qarşıdurması müstəvisində yeni "balinalardan" birinə çevrilib. Ona görə şərti deyirəm ki, həmin Yaponiya və ya Cənubi Koreya da coğrafi baxımdan Şərqə daha çox aiddir, amma iqtisadi və siyasi cəhətdən Qərblə bağlıdır".

Rusiyalı politoloq bu kontekstdə Azərbaycan ilə İranın "tarixən anlaşılan və perspektivdə uzaqgörən yaxınlaşmasına" diqqəti çəkib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin iranlı həmkarı İbrahim Rəisi ilə görüşdə söylədiyi kimi, iki qonşu ölkə, iki qohum xalqları süni şəkildə bir-birinə qarşı qoymağa çalışıblar. Ekspert hesab edir ki, bu yaxınlaşma sözügedən yuxarı güclərin planlarını pozur, onların məqsədi isə bütün vasitələrlə bunun qarşısını almaq, o cümlədən Brüsseldəki daha ciddi marionetkaları və İrəvandakı kiçik oyuncaqları vasitəsilə Bakıya çoxtərəfli təzyiq göstərməkdir.

Üçüncüsü, V.Arkov qeyd edib ki, ABŞ-ın Cənubi Qafqazda siyasəti kontekstində olan hədəfləri arasında Demokratlar partiyasının 2024-cü il noyabrın 5-də keçiriləcək prezident seçkilərində Ağ evdə qalmaq, habelə Konqresin Nümayəndələr Palatasında daha çox yerə sahib olmaq üçün erməni icması ilə apardığı oyunu göstərmək olar.

Politoloq sözlərinə yekun vurub: "İndi Konqresdə çoxluq Respublikaçılar partiyasının əlindədir. Həmin gün Senatın 100 üzvündən 33-nün də seçkiləri olacaq. Burada indi üstünlük Demokratların tərəfindədir, amma Cozef Bayden administrasiyasının bir çox amerikalı ev-təsərrüfatlarında ciddi iqtisadi problemlərə gətirib çıxaran siyasəti səsvermə zamanı etirazlara səbəb ola bilər. Ermənəsilli seçicilər (bir sıra başqa etnoslar kimi) ən fəallardan biridir. Əlavə olaraq, onların kütləvi yaşadıqları ştatlarda keçirilən sorğunun nəticələrinə görə ya Respublikaçı namizədlərin üstünlüyü, ya da qərarsız seçicilərin çoxluğu müşahidə olunur. Bu səbəbdən Ağ evin, Dövlət Departamentinin və Konqresdəki demokratların Ermənistanı dəstəkləyən gurultulu bəyanatları və bununla yanaşı Azərbaycana qarşı yönəlmiş tamamilə əsassız hücumları sırf Amerikanın daxilindəki seçkiqabağı məsələləri həll etmək məqsədi daşıyır".

# Söz əməlin kölgəsidir - Qürurla verilən vəd qətiyyətlə gercəkləşdirilir

## Prezident İlham Əliyev: "Siyasi həyatımda heç vaxt olmayıb ki, mən söz verim və arxasında dayanmayım"

“Siyasi həyatımda heç vaxt olmayıb ki, mən söz verim və arxasında dayanmayım. Verdiyim bütün sözlər yerinə yetirilib. Digər tərəfdən, mən çox söz vermirəm, çünki nəticəni nümayiş etdirməyi üstün tuturam”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyevin Çinin CGTN televiziya kanalına müsahibəsindən bildirib. Bəli, bu gün dövlət başçımızın qürurla dediyi sözləri qətiyyətlə gerçəkləşir. Noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Zirvə görüşündə çıxışında Prezident İlham Əliyev deyib: ”Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik”. Dövlətimizin başçısı ilkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpasının nəzərdə tutulduğunu qeyd edib. ”Keçmiş məcburi köçkünlər ”Böyük Qayıdış” Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq”, - deyə Azərbaycan Prezidenti bildirib. Bəli, artıq bu gün - 33 ildən sonra dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən ”Xarıbülbül” festivalı artıq bərpa olunub. Bütün bu uğurlar Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir.

Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni, dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları da prezidentlik fəaliyyətinin 20 ili ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Və bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur.

### ”DƏMİR YUMRUQ” BİRLİYİ İLƏ HAQQ VƏ ƏDALƏTİ BƏRPA ETMİŞ AZƏRBAYCAN XALQININ BİRLİK, GÜC RƏMZİ İLƏ BÖYÜK QƏLƏBƏ, ZƏFƏR TARİXİNİ YAZDI

Mümkünsüzü mümkün edən 44 günlük müharibə bir daha bütün dünyaya göstərdi və sübut etdi ki, o özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi! 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin videokonfrans formatında keçirilən görüşdə imzalanan birgə bəyanatla işğal altında olan torpaqlarımız, o cümlədən Kəlbəcər, Ağdam və Laçının bir güllə belə atmadan qaytarılması, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, bütün daxili məcburi köçkün və qaçqınlarımızın öz ata-baba yurdlarına, Dağlıq Qarabağa və onun ətraf ərazilərinə qayıtması və Naxçıvan Muxtar Respublikasına quru sahəsi ilə birbaşa yolun açılması böyük tarixi hadisədir. Bu ”Dəmir yumruğ”un və Azərbaycan Ordusunun gücü sayəsində baş verdi. 1 milyondan çox soydaşlarımızın torpaq, yurd həsrətinə son qoyuldu.

### VERİLƏN VƏDƏ SADİQLİK ÖRNƏYİ: ”SİZ KÖÇKÜN DEYİLSİNİZ, BİZ SİZİ QAYTARACAĞIQ!”




Prezident İlham Əliyev qələbə zəfərindən sonra bütün çıxışlarında bildirir ki, bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və buna da nail olacağıq.”Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq!”,-deyən Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır: ”Məcburi köçkünlərin problemlərinin həlli Prezident kimi mənim ən başlıca vəzifələrimdən biridir. Digər tərəfdən, özəl sektor artıq sosial məsuliyyət göstərərək belə gözəl imkanlar yaradır”.

### BÖYÜK QAYIDIŞ ÜÇÜN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA MÜKƏMMƏL HƏYAT ŞƏRAİTİ YARADIR

Bir qərinəyə yaxın dövrdə düşmən tapdağı altında əsir həyatı yaşayan Qarabağ və Şərqi Zəngəzurun qaranlığa qərq edilmiş hər guşəsi indi nura boyanır. Yenidən qurulub abadlaşan, dünyanın ən ecazkar məkanlarından birinə çevrilən bu yurd yerlərimizdə reallaşan möhtəşəm layihələr düşmənin bağrını yarır və Şuşanın, Kəlbəcərin, Ağdamın, Xocavəndin, Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının, Suqovuşanın timsalında zəfərimiz parlayır. Çünki bu gün Qarabağ və Şərqi Zəngəzur azaddır, Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, qürurla öz doğma torpaqlarımızı qururuq, yaradırıq.Deyilənləri təsdiqləyən amil 2023-cü ilin iyun ayında dövlət büdcəsinə edilmiş dəyişikliklərdən sonra xərclər 3 milyard manat artırılaraq 36 milyard manata çatdırılmasıdır ki, bu da müstəqil Azərbaycanın tarixində rekord göstəricidir. Xərclərə əlavə edilən 3 milyard manatın təqribən 1,8 milyardlıq hissəsinin Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinə ayrılması isə belə bir həqiqətin növbəti təsdiqi oldu ki, işğaldan azad edilmiş ərazilərin bərpası Azərbaycanın milli prioritetidir.

Prezident İlham Əliyev 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bu barədə konkret şəkildə bildirmişdir: ”Dürüstləşmə zamanı bizim əsas iki istiqamətimiz də çox açıq-aydın qoyulmuşdur. Bütövlükdə 3 milyard manatdan çox vəsait əlavə edildi. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə istiqamətləndirilmişdir, 1,1 milyard manat isə hərbi potensialımızın güclənməsinə. Yəni, ayrılmış məbləğin mütləq əksəriyyəti bu iki istiqamətə yönəldilmişdir və bu da təbiidir. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir”.

### BÜTÜN BU QURUCULUQ İŞLƏRİNİN TƏMƏLİNDƏ AZƏRBAYCAN XALQININ MARAQLARI DAYANIR

Sözsüz ki, bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır. Azərbaycan Prezidenti çıxışlarında, müraciətlərində də daima bildirir ki, 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciətində demişdi ki, ona etimad göstərilərsə, Heydər Əliyev siyasətinə sadiq qalacaq. Və Azərbaycan xalqı İlham Əliyevə səs verərək Ulu Öndərə olan məhəbbətlərini və inamlarını göstərdi. Artıq Prezident İlham Əliev cənablarının ilk prezident seçilməsindən ötən 20 il ərzində Azərbaycan sürətli inkişaf və tərəqqi yolunda uğurlu inkişaf yolunda davam etməkdədir. Hər bir vədin konkret əməli işi ilə təsdiqləyən Azərbaycan Prezidenti İlham Əliyevin Qələbəmizin Zəfərindən ötən üç il ərzində işğaldan azad edilmiş ərazilərə səfərləri çərçivəsində təməlqoyma mərasimində iştirak etdiyi yeni sosial obyektlərin say tərkibinə, icrasına başlanan infrastruktur layihələrinə, imzalanan Fərman və sərəncamlara, təsdiqlənən Dövlət proqramlarına diqqət yetirmək kifayətdir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir!

Bəli, qələbəmizdən 3 il keçməsinə baxmayaraq, dövlət başçımızın dediyi kimi: ”Bu bölgə nəinki Azərbaycan üçün, dünya üçün nümunəvi bölgə olacaq. Biz hər şeyi planlı şəkildə edirik. Əlbəttə ki, tələsirik, amma eyni zamanda, tələskənliyə yol vermirik. Bütün tender prosedurları keçməlidir, şəffaflıq tam təmin edilməlidir, orada heç bir inhisarçılıq olmamalıdır. Açıq tender prosedurları təmin edilir və ediləcək. İctimaiyyətə müntəzəm olaraq məlumat verilməlidir və veriləcək”.

### AZƏRBAYCAN HEÇ BİR BEYNƏLXALQ MALİYYƏ QURUMUNDAN YARDIM ALMADAN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURU ÖZ İQTİSADİ QÜDRƏTİ HESABINA YENİDƏN QURUR

Hazırda möhtəşəm tarixi qələbənin sevincini yaşayan xalqımız Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun quruculuq salnaməsini yaradır. Düşmənin 30 il ərzində viran qoyduğu ərazilərimizin, daşı daş üstdə saxlamadığı yurd yerlərinin bərpası sürətlə davam etdirilir və Azərbaycan dövləti öz maliyyə imkanları hesabına həyata keçirir. Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. Bu ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün daha 5 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub. Artıq həmin vəsaitin 60 faizi istifadə olunub. Bütövlükdə isə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bərpa-quruculuq işlərinə, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcək. Bu da Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı işlərin sürətlə həyata keçirilməsinə dəlalət edir. Bir sözlə, illərlə əsl sahibinə həsrət qalan torpaqlarımızda infrastruktur yenilənir, dədə-baba yurdlarına qayıdacaq soydaşlarımızın rahat yaşaması, işlə təmin olunması, onların təhlükəsizliyi və istirahəti üçün hər cür şərait yaradılır. Bu reallıq bir daha sübut edir ki, Azərbaycan heç bir beynəlxalq maliyyə qurumundan yardım almadan Qarabağ və Şərqi Zəngəzuru öz iqtisadi qüdrəti hesabına yenidən qurur.

Bir sözlə, bu gün Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəlir, tarixi torpaqlarımıza həyat qayıdır. İşğaldan azad edilən tarixi torpaqlarımızda görülən bütün bu irimiqyaslı işlər birbaşa Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında həyata keçirilir. Çünki hər zaman çıxışlarında ”Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq”, - söyləyən İlham Əliyev bildirir ki, bu istiqamətdə qarşıya qoyulan bütün hədəflər təmin edilir, 30 il ərzində əziyyət, mənəvi əzab içində yaşamış köçkünlərin qısa müddət ərzində öz doğma torpaqlarına qaytarılması üçün mühüm layihələr gerçəkləşdirilir.

Bir sözlə, dövlət başçısının düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrası həm Azərbaycana böyük iqtisadi və siyasi dividendlər qazandıracaq, həm də dünya bir daha şahidi olacaq ki, Prezident İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir. Bu günün reallıqları isə bir daha göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Və bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş kəndlərimiz, şəhərlərimiz yenidən, qurulur, dirçəlir. Bütün işlər ardıcıl və sistemli şəkildə həyata keçirilir.

Bir sözlə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və bu gün Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək və insanlarımız yurd həsrətinə son qoyaraq öz doğma torpaqlarında firavan yaşayacaqlar. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

**RƏFİQƏ KAMALQIZI**

# Naxçıvanın Turizm potensialı: İnkişaf perspektivləri və tədbirlər

***Naxçıvan Muxtar Respublikası Azərbaycanın qədim bölgələrindən biridir. Özünəməxsus iqlimi, coğrafi mövqeyi, mədəniyyəti, tarixi - memarlıq abidələri və təbiəti ilə ön plana çıxır. Bununla yanaşı, Naxçıvan, arxeoloji və tərəqqi edən bölgələri ilə də məşhurdur. Bu unikal şərait Naxçıvanı turizm mərkəzi halına gətirir və bir çox turistləri bu bölgəyə çəkir. Bəs Naxçıvan turizmi üçün tarixi və əhəmiyyətli turistik məkanlar hansılardır? Və onlar hansı kateqoriyalara ayrılır?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Müalicə turizmi

Duzdağ Müalicə Mərkəzi, Azərbaycanın Naxçıvan Muxtar Respublikası içində yerləşir və bölgədə sağlamlığın qorunması üçün əhəmiyyətli bir rolu ifa edir. Mərkəz, müasir tibbi texnologiyalara və peşəkar heyətə sahibdir. Naxçıvanın idarəetməsi, Duzdağ Müalicə Mərkəzi vasitəsilə əhalinin sağlamlığının təmininə və müalicə xidmətlərinə geniş mövcudluq və yüksək keyfiyyət təmin etməyə nail olmağı hədəfləyir.



Mərkəzin əsas fəaliyyət sahələri arasında tibbi müayinələr, xüsusi xidmətlər, peşəkar konsultasiyalar və müalicə planlaması yer alır. Duzdağ Müalicə Mərkəzi, həm də ətraflı diaqnostika, laboratoriya tədqiqatları və tibbi avadanlıqla təchiz edilmişdir.

Bu müalicə mərkəzinin mövcud imkanları və təchizatı ətrafında sosial və tibbi inkişafın dərinləşdirilməsi, əhalinin sağlamlığının artırılması və tibbi sahədə təcrübələrin artırılması üçün əhəmiyyətli bir resurs olduğunu söyləyə bilərik.



Bu mövzu haqqında Turizm eksperti Natiq Paşayev SİA-ya verdiyi açıqlamada bildirib ki, Duzdağ müalicə mərkəzinə turist axını olduqca çoxdur:

”Naxçıvanda yerləşən Duzdağ müalicə kompleksində olan və duzdan hazırlanan suvenirlər gələn qonaqların maraqlarını cəlb etdikləri üçün buraya turist axını hər mövsümdə özünü göstərir. Burada turistlərə müxtəlif qonaqlama variantları təklif edilir. Otellərə və xidmət çeşidinə görə isə qiymətlər dəyişir. Qeyd etmək lazımdır ki, qiymətlər sezona uyğun təklif olunur. Hazırdakı qiymətlər 1 böyük və 1 uşaq üçün 7 gün 8 gecə 595 AZN-dir. Bu qiymətə isə hava limanı transferləri, Duzdağ oteldə qonaqlama, həkim müayinəsi, mağarada qonaqlama, 3 dəfə qidalanma və otel fəaliyyətlərindən yararlanmaq (SPA FİTNESS...) imkanları daxildir. 2 böyük və 1 uşaq üçün isə qiymət 840 AZN-ə qalxır”.

ARAŞDIRMA

## Tarixi - mədəni turizm

Naxçıvanın turizm potensialından danışdıqda ilk başda onun özünəməxsus tarixi-mədəni irsi ön plana çıxır. Bu torpaqların tarixi ən azı 3000 il bundan əvvələ qayıdır. Burada bir çox tarixi abidələr, məbədlər və memarlıq kompleksləri mövcuddur. Dünya memarlığının incisi hesab oluna biləcək tarixi memarlıq abidələrinə Yusif Küseyir oğlu türbələri, Naxçıvan qala abidəsi, Qarabağlar Memarlıq Kompleksi, ”Xanəgah” Abidə Kompleksi və çox vaxt turistlərin axınına məruz qalan Möminə Xatun Türbəsini sadalamaq olar.



Möminə Xatun türbəsi Azərbaycanın ən məşhur və müqəddəs strukturlarından biridir. Türbə heyranedici memarlıq quruluşuna malikdir. Səkkizguşəli günbəzlə bəzədilən bu memarlıq abidəsi üzərinə yerləşdirilən badam ağacı formasındakı iki minarə türbəyə özünəməxsus görkəm verir. Bu minarələr İran Azərbaycanının mədəniyyət və memarlığını Naxçıvan bölgəsinə daşıyan mühüm elementlərdir. Türbənin içində, mozaika ilə bəzədilmiş Möminə Xatunun türbəsi yerləşir. Gözə naxış və rənglərlə işlənmiş mozaika İslam sənətinin mühüm nümunəsini təmsil edir. Bundan əlavə, türbənin içərisində ziyarətçilərə ibadət imkanı təklif edən yerlər də mövcuddur.

12-ci əsrdə Nizam əl-Mülkün hakimiyyəti dövründə yaşamış Möminə Xatun, Atabəy Şəmsəddin Eldənizin yoldaşı olmuşdur. Ölümündən sonra onun xatirəsini yaşatmaq və ehtiramla anmaq üçün bu məqbərə inşa edilmişdir.

Həmçinin, məqbərə Azərbaycanın mədəni və tarixi irsinin bir hissəsidir. Bu bölgə tarix boyu müxtəlif sivilizasiyalara ev sahibliyi etmişdir və bu da Möminə Xatun türbəsi bu zəngin keçmişi əks etdirir. Nəticədə Möminə Xatun türbəsi, Azərbaycanın ən mühüm mədəni və dini tikililər biridir. İnanc turizmi baxımından da böyük əhəmiyyətə malik olan bu türbə, tarixi və mədəni irsimizin bir hissəsidir.

## Kənd-yaşıl turizmi

Böyük şəhərlərdən və xaricdən gələn insanların sadə bir kənd evində istirahət etmək arzuları hər zaman olur. Kənd turizmi adlanan bu turizmin məhz yerləşmə obyekti kənd evləridir. Artıq insanlar şəhərin ab-havasından əziyyət çəkib məhz bu kənd evlərinə üz tuturlar. Muxtar Respublikanın mövqeyi, inzibati ərazisi bu baxımdan böyük potensiala malikdir. Bu potensialı artıran ən mühüm obyektlərdən biri Şahbuz rayonunun eyniadlı kəndində fəaliyyət göstərən Ağbulaq İstirahət Mərkəzidir. Bu istirahət mərkəzi: Azərbaycanın turizm güzgahındakı incilərdən biridir. Azərbaycanın təbiət baxımından zəngin ərazilərindən biri olan Ağbulaq, şəhərdən uzaq, təbii gözəllikləri ilə məşhur bir istirahət mərkəzidir. Şimalda yerləşən bu gözəl ərazi, təbiət dostları və səyahət sevərlər üçün ən maraqlı tətil mövsümlərindən birinə çevrilib.

Ağbulaq İstirahət Mərkəzi, şəhərin səs-küy tələbatından uzaq və sakit bir mühitdir. Əyləncə və istirahət imkanları Ağbulaq İstirahət Mərkəzi ilə məhdud deyil. Burada çimərlik sahələri, piknik əraziləri, yürüş parkurları və su əyləncələri üçün təyin olunmuş yerlər mövcuddur. Mərkəzdə təşkil edilən müxtəlif tədbirlər və festivallar, əyləncəli və maraqlı bir tətil keçirmək istəyənlər üçün ideal bir imkan təşkil edir.



Ağbulaq İstirahət Mərkəzi, yerli və xarici turistlərin marağını cəlb etməkdədir və regionun turizm potensialını artırmağa nail olur. Bu təbii cənnət, sürətli şəhər tempindən qaçmaq və təbiətdən zövq almaq istəyənlər üçün mükəmməl bir tətil məkanı olaraq tanınmağa davam edir.

## Dini-ziyarət turizmi

Naxçıvan, zəngin tarixi və mədəniyyəti ilə tanınan bir region olduğu üçün dini ziyarət turizminin də böyük potensialı var. Şəhərlərdə və ətraf ərazilərdə bir çox dini məkan və abidələr tapa bilmək mümkündür. Turizmin inkişafına təsir göstərən, mühüm faktorlardan olan dini ibadətgahlar və abidələr turistlərin maraq dairəsini əhatə edən məkanlardandır. Naxçıvan Muxtar Respublikası öz dini ziyarətgahları ilə ön plana çıxır. Burada mövcud olan dini obyektlərdən ən mühümü isə müqəddəs Qurani Kərimin ”Əl-Kəhf” surəsində haqqında bəhs edilən Əshabi-Kəhf ziyarətgahıdır. 2004-cü ildən ”Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi adı altında fəaliyyət göstərən ziyarətgahda ziyarətçilər üçün hər cür şərait yaradılmışdır. Hər il buraya on minlərlə insan ziyarətə gəlir.

Əshabi-Kəhf ziyarətgahının tarixi miladi əsrin III-IV minilliyinə qədər uzanır. Bu ənənəvi məkan, müstəqil bir şəxsiyyət kimi, müxtəlif dövrlərdə müxtəlif mədəniyyətlər tərəfindən istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı tapılan əsrlərlə əvvəlki abidələr və qəbir yerləri, Əshabi-Kəhf ziyarətgahının müxtəlif tarixi dövrlərdə əhəmiyyətli bir məkan olaraq fəaliyyət göstərdiyini təsdiqləyir.

Ziyarətgahın əsas hissələrindən biri Əshabi-Kəhf mağarasıdır. Bu mağara, təqribən 300 metr uzunluğunda və müxtəlif bölmələrdən ibarətdir. Mağara, qarğıdalı və səki dağların altında yerləşir və insanların burada yaşamağa başladığı neolit dövründən bu günə qədər fəal olmuşdur. Əshabi-Kəhf mağarasının içində tapılan arxeoloji tədqiqat nəticəsində, bu mağaranın təqribən 7000 il əvvəl insanların yaşadığı bir məkan olduğu müəyyənləşib.

Əshabi-Kəhf ziyarətgahında yerləşən digər bir əsas abidə də Əshabi-Kəhf məscididir. Məscid, VII əsrdə tikilmişdir və müasir görünüşü ilə ziyarətçiləri gözləyən bir abidə kimi qarşılayır. Məscidin memarlığı, Əshabi-Kəhf ziyarətgahının dini və mədəni ənənələrinin möhkəmlənməsində rol oynamışdır.

Aydın olur ki, Əshabi-Kəhf ziyarətgahı, Azərbaycanın və regionunun tarixi və mədəniyyət varlığı üçün əhəmiyyətli bir məkan olmağa davam edir. Ziyarətgah, təbii gözəllikləri, tarixi ənənələri və dini mədəniyyəti bir araya gətirərək turistlər və tədqiqatçılar üçün maraqlı bir təcrübə təmin edir.

## Zəngəzur Turizmi

Naxçıvan Zəngəzur dəhlizi, əsasən, iqtisadi, siyasi və mədəni sahələrdə bir birləşdirici və əlaqə yaratmaq üçün strateji bir mövqe əldə edir.

Bu dəhlizin ətrafında tarix boyunca müxtəlif imperiyaların hakimiyyətində olmuşdur, amma Azərbaycanın müstəqil dövlət kimi birləşməsindəki rolu və strateji əhəmiyyəti daima öz əlamətlərini saxlamışdır. Naxçıvan Zəngəzur dəhlizi, regional əməkdaşlıq və əlaqələrin gücləndirilməsi üçün əhəmiyyətli bir potensiala sahibdir.

Zəngəzur dəhlizi ilə birlikdə Qarabağın ərazisi, bölgədəki turizm potensialını bir araya gətirən əhəmiyyətli məkanlardır. Zəngəzur dəhlizi, Azərbaycan və Ermənistan arasında strateji bir əhəmiyyətə sahibdir və bu ərazidə turistlərə tarixi və təbii zənginliklər təklif edir. Qarabağ isə tarixi və mədəni güzgüsü ilə tanınan bir bölgədir. Bu iki ərazilərin birləşdirilməsi, Azərbaycan turizmi üçün tərəqqi yarada biləcək bir hadisədir.

Turizm eksperti Rəhman Quliyev: ”Bu gün Azərbaycanda ictimai asayişin yüksək səviyyədə qorunub saxlanılması, sabitçilik, əmin-amanlıq turizmin davamlı və dayanıqlı inkişafına əsas verən amillərdəndir. Bu gün dünyada baş verən siyasi qalmaqallar, siyasi krizislər, müharibələr dünya turizmini ciddi təhdidlər qarşısında qoyub. Azərbaycanın 20 % -dən çox ərazisinin 30 illik işğalı dövründə də atəşkəs rejimi olmasına baxmayaraq mütəmadi olaraq cəbhə boyu atəşkəsin pozulması Azərbaycana gələn turistləri narahat etməyə bilməzdi. Əlbəttə ki, bu başa düşülən idi. Artıq biz o günləri geridə qoyduq, Qarabağda 4 böyük beynəlxalq hava limani tikildi. Bu aeroportlar Zəngilan, Qubadlı, Şuşa, Xankəndi, Laçın, Kəlbəcər, Xocalı və ətraf rayonlara qayıdacaq sakinlərə xidmət edəcək, eyni zamanda, xarici turistlər üçün də Qarabağa səfər etmək daha əl çatan olacaq. Yaxin 5 ildə Qarabağ bölgəsində termal xarakterli sanatoriyalarin tikilib istifadəyə verilməsini zəruri hesab edirəm. Çünki Qarabağın havası suyu müalicəvi əhəmiyyətli florası buna böyük imkan yaradır. Biz Qarabağ sanatoriyalarını beynəlxalq turizm sərgilərində böyük formatda sərgiləməli, reklam etməli və Qarabağı dünyaya şəfa ocağı kimi tanıtmalıyıq.

Dağ xizək komplekslərinin də Kəlbəcərdə, Zəngilanda yaradılmasının böyük əhəmiyyəti ola bilər, çünki burada adı çəkilən rayonların dağ relyefləri də tam uyğun gəlir”.

***Özləm Quliyeva***

# YUNESCO adlı qurumdan QƏRƏZLİ MÖVQE VƏ MÜNASİBƏT

**Azərbaycana məxsus ərazilərdə erməni separatçılarının, vandallarının törətdikləri vəhşiliklər fonunda xalqımıza aid olan mədəni irsin məhv edilməsi ilə bağlı YUNESCO ölkəmiz tərəfindən dəfələrlə məlumatladırılıb. Hətta işğal dövründə ermənilərin törətdikləri vəhşiliklərlə, dağıntılarla tanış olmaq üçün həmin quruma müraciətlər də ünvanlanıb və ölkəmizə dəvət olunub. Buna baxmayaraq, sözügedən qurum ermənilərin törətdikləri vəhşilikləri qeydə almaq üçün bir dəfə də olsa ölkəmizə səfər etməyib və ümumiyyətlə, Azərbaycanın müraciətlərinə lazımi münasibət belə bildirməyib, amma nədənsə Ermənistanın dəvəti dərhal nəzərə alınıb.**

Əslində, YUNESCO adlı quruma nəinki müraciət ünvanan zaman dərhal həmin müraciəti qəbul edərək səfər etməli idi, həmin qurum heç müraciət olmadan belə mədəni irsin qorunması istiqamətində özü müvafiq addımlar atmalı idi. Bu, həmin qurumun vəzifəsidir və deyilmədən, müraciətlər ünvanlandırılmadan həmin qurum tarixi, mədəni, dini abidələrin taleyinə, onların dağıdılmasına laqeyd olmalı deyildi və bu barədə ciddi şəkildə düşünərək lazımi tədbirlər görmək üçün ən azından, ölçü götürməli idi. Amma biz bunu görmədik, müşahidə etmədik, çünki lazımi tədbirlər nəinki görülmədi, bu barədə heç düşünülmədi də. YUNESCO adlı qurum nə 44 günlük müharibədən öncə, nə də sonra xalqımıza məxsus olan tarixi abidələrin, dini abidələrin vəhşicəsinə dağıdıldığına, məhv edildiyinə məhəl qoymadı, tamamilə laqeyd münasibət sərgilədi. Amma ermənilərin qondarma, heç bir tarixi olmayan və eləcə də faşizmin, vəhşiliyin tərənnümü üçün ucaltdığı heykəllərə YUNESCO diqqət göstərməli oldu. Maraqlıdır, bu qurum tarixi və mədəni irsin qorunmasında, yoxsa, vandallığı tərənnüm edən heykəllərin qorunmasında maraqlıdır? Görünür, heykəllərin qorunması maraqlı imiş









deyə, ermənilərin dəvəti də daha böyük marağa səbəb olub.

Xankəndinə səfər etmək, oradakı vəziyyətlə tanış olmaq üçün müraciət edən YUNESCO Azərbaycandan müsbət cavab alsa da, Ağdamdakı dağıntıların, törədilmiş vəhşiliklərin qeydə alınması tövsiyyə edilsə də, buna tərəddüdlə yanaşılıb, hansıki bu, təəccüb və təəssüf doğurur. Ona görə ki, Ağdamdan keçərək Xankəndinə gedən bu qurum dağıdılmış və tamamilə yerlə-yeksan edilmiş şəhərin cəmi ikicə abidəsinə nəzər salmağı vacib bilib və bu, heç şübhəsiz, qərəzdən və ədalətsizlikdən başqa bir şey deyil. Görəsən, nəyə görə YUNESCO Azərbaycana məxsus olan bir şəhərin tamamilə dağıdılmasını, yaşayış məntəqələrimizin viran edilməsini, xalqımıza məxsus olan yurd yerlərinin yerlə-yeksan edilməsini qeydə almaq istəmir? Bütün bunları öz gözləri ilə görənlər niyə belə bir qərəzli yanaşma sərgiləyirlər? Axı xalqımıza məxsus olan maddi və mənəvi irsə qarşı vəhşilik, milli-mənəvi abidələrimizə qarşı törədilən qeyri-insani hərəkətlər bütövlükdə, insanlığa və eləcə də dünya mədəniyyətinə qarşı törədilib.

Sözsüz ki, YUNESCO tərəfindən sərgilənən mövqe həmin qurumun da ermənipərəst olduğunu, mədəni irsin qorunmasına deyil, erməni maraqlarına xidmət etdiyini təsdiq edir. Təsdiq edir ki, bu qurum, sadəcə olaraq, təcavüzkarların tapşırıqlarına əsasən fəaliyyət göstərir. Bunu sübut edən faktlar göz önündədir. Əgər ölkəmizin bu vaxta qədər etdiyi müraciətlərə məhəl qoymayan YUNESCO dərhal Ermənistanın, yəni təcavüzkar, işğalçı bir dövlətin çağırışlarına dərhal cavab verirsə, deməli, deyilənlər öz təsdiqini artıq tapmış olur. Bəlli olur ki, YUNESCO mədəni irsin qoruyanların deyil, mədəni abidələrə qarşı vəhşilik, vandallıq edərək, onları darmadağın edənlərin, məhv edənlərin yanındadır. Ermənistanın dəvətini dərhal qəbul etməklə, qurum bunu açıq-aşkar şəkildə nümayiş də etdirmiş oldu. Yəni, məkirli mövqeyini də gizlətmədi, ölkəmizə qarşı qərəzini də. Ağdamdan "laqeyd şəkildə" keçərək, Xankəndinə getmək niyyəti həmin qurumun səfərinin sifarişlə, ölkəmiz əleyhinə siyasət yürüdənlərin tapşırıqları ilə edildiyini, eləcə də ermənilərin çirkin məqsədlərinə xidmət etdiyini göstərir. Belə bir qərəzli mövqe həmin qurumun imicinə ciddi şəkildə zərbə deməkdir və Azərbaycan bu məqamları sözsüz ki, gələcəkdə nəzərə alacaq.

"Azərbaycanın işğal etdiyi Hadrut bölgəsində erməni mədəni irsinin dağıdılması davam edir. Videoda Artsaxın Hadrut rayonunun Uxtadzor kəndində azadlıq müharibəsinə həsr olunmuş abidənin dağıdılaraq yerə yıxıldığı, abidənin ayrı-ayrı hissələrinin sındırıldığı aydın görünür", deyə bildirən qurumun fikirlərindən sitat gətirərkən insan öz qəzəbini boğa bilmir. Çünki bu qurum işğaldan azad edilmiş ərazini, utanmadan, işğal edilmiş kimi qələmə verir. Nə qədər kor və kar olmaq lazım idi ki, əsrin üçdə birinə yaxın müddət ərzində kimin işğalçı, kimin də işğala məruz qalan olduğu görülməsin və dərk edilməsin. Yəni, həqiqətən də YUNESCO bilmir ki, Azərbaycan əraziləri 30 il müddətində erməni separatçılarının işğalı altında olub? Axı BMT kimi bir beynəlxalq təşkilatın, Ermənistana məxsus qanunsuz silahlı dəstələrin qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd məlum qətnaməsi barədə bilməyə bilməzdi.

Ardı Səh. 6

# YUNESCO adlı qurumdan QƏRƏZLİ MÖVQE VƏ MÜNASİBƏT

Əvvəli Səh. 5



Elə isə, YUNESCO-nu bu anda nə vadar edir ki, belə mövqe sərgiləsin?

Hadrud bölgəsində erməni mədəni irsinin dağıdılması davam edir deməklə, YUNESCO nəyi nəzərdə tutur? Hansı mədəni irsdən söhbət gedə bilər axı? Başqalarının torpaqlarını işğal edən, qonşu ölkə ərazisini zəbt edərək orada məskunlaşanların mədəni irsi nədən ibarət ola bilərdi? İşğal əməllərini tərənnüm edən abidələr, yoxsa tarixi saxtalaşdırmaq üçün qurulan eybəcər heykəlləri YUNESCO mədəni irs hesab edirmi? Yaxşı olardı, qurum qeyd edərdi ki, ermənilərin Hadrud bölgəsində vəhşiliyi, işğalı tərənnüm edən, tarixi saxtalaşdırmaq niyyəti ilə qurduqları heykəllərdən həmin ərazilər düşünülmüş qaydada və tam doğru



olaraq, təmizlənmişdir. Bax bu, ədalətli olardı, qərəzli yox. Çünki ermənilərə aid nə varsa, onlar mədəni irs hesab oluna bilməz və uzaq başı vəhşiliyin, saxtakarlığın tərənnümü olan heykəl kimi qeydə alına bilərdi. Bunun da aqibəti elə göründüyü şəkildə olmalı idi və burada qeyri-adi heç nə yoxdur. Əksinə, Monte və ya Njde kimi faşistin, vəhşinin heykəli Azərbaycana məxsus ərazilərdə nəyə görə saxlanılmalıdır? Onlar eradan əvvələ məxsus mədəniyyət abidəsi də deyil ki, adını nə isə qoyub saxlanılmasını YUNESCO vacib əməl kimi qeyd etsin. Bu abidələr nəinki Azərbaycan ərazilərində, heç Ermənistanda da ucaldılmamalıdır, çünki həmin abidələrə qətiyyən yer, torpaq belə ayrılmamalıdır.

Azərbaycanın Qrabağ iqtisadi rayonuna "Arsax" demək özü də qərəzli mövqedən xəbər verir. YUNESCO işğaldan azad olunan ərazilərin Azərbaycana məxsus olduğunu bilmirmi? Yoxsa sifarişlərini can-başla qəbul etdiyi ermənilərin başbiləni olan erməni baş nazir Nikol Paşinyanın bu barədə, yəni həmin ərazilərin Azərbaycana məxsus olması barədə etiraflarından da xəbərsizdir? Bəlkə bu qurum Qarabağ adını da eşitməyib? Axı mədəni irsin qorunması ilə məşğul olan bir qurum Qarabağın musiqiyə, təsviri incəsənətə, rəssamlığa, heykəltəraşlığa və ümumilikdə dünya mədəniyyətinə verdiyi töhvələrdən xəbərsiz ola bilməz. Əgər orta əsrlərdə Müsyö Jordan kimi birisi Azərbaycanın Qarabağ bölgəsinin bir mədəniyyət ocağı olduğunu bilirdisə və bu ərazilərə səfər edərək, topadıqları məlumatları Avropaya daşımaq niyyətində idisə, deməli, dövrümüzün YUNESCO adlı bu yekəlikdə təşkilatı bu barədə qətiyyən xəbərsiz ola bilməzdi, baxmayaraq ki, özünü bilməməzliyə vurur.



Qarabağ ərazisində 67 məsciddən 63-ü erməni işğalçıları tərəfindən dağıdılıb. Dağıdılıb yox, daha doğrusu, onlar tamamilə məhv edilib. Həmin məscidlərin tarixi bu gün özlərin erməni adlandıran hayların tarixindən daha əvvəlki dövrə qədər gedib çıxır. Dağıdılan məscidlər ermənilərin faşistə, vandala qurduqları heykəllə müqaisə edilə bilməz və bu tarixi tikililər ümumilikdə, müsəlman dünyası üçün olduqca dəyərlidir. Müsəlmanların ibadət yeri olan həmin tarixi tikililəri tamamilə məhv etmək, dağıdılmışlar və bərbad vəziyyətə salınmışlarının bəzilərindən də donuz tövləsi kimi istifadə etmək Azərbaycana məxsus maddi-mədəni irsə qarşı təhqir deməkdir. Bəlkə bunu da YUNESCO görməyib? Axı bu barədə kifayət qədər foto şəkillər paylaşılıb və bunu görməmək mümkün deyil. Ermənilər vəhşilikləri sayəsində xarabalığa çevrilmiş və dağıdılmış digər tarix və mədəniyyət abidələrinin də sayı-hesabı yoxdur. Zəngəzur Vilayətinin Qafan, Mehri, Xot, Əlidərə inzibati yaşayış məntəqələrində Ermənistanın siyasi rəhbərliyinin göstərişi ilə dağıdılmış 900-dən çox tarix və mədəniyyət abidəsinin xarabalıqları bu gün də qalmaqdadır. YUNESCO nə əcəb ermənilər tərəfindən dağıdılmış bu qədər sayda mədəniyyət abidəsini deyil, iki dənə faşistin bir-iki il bundan əvvəl qoyulmuş heykəlinin götürülməsini görməli oldu? Bu boyda qərəz olmaz və hər halda bütün bunlar ölkəmiz tərəfindən bundan sonra nəzərə alınacaq.

Ermənistan tərəfi 1987-ci ildə başlatdığı etnik təmizləmə siyasəti fonunda azərbaycanlılara məxsus əmlakı, mədəni irsi ya ələ keçirib özününkü kimi təqdim etməyə çalışıblar, ya da bunu bacarmadıqları halda dağıdıb yer üzündən tamamilə siliblər. İndiki Ermənistan ərazisində Azərbaycana məxsus 3500 mədəniyyət abidəsi, 500 qəbristanlıq, 391 məscid ermənilər tərəfindən dağıdılıb, tamamilə məhv edilib. Məsələ burasındadır ki, xalqımıza məxsus olan bu qədər maddi-mədəni abidələrin ermənilər tərəfindən darmadağın edilməsinə, düşünülmüş və planlı şəkildə məhv edilməsinə YUNESCO hələ də susur. Nəinki susur, hətta ermənilərin faşizmi tərənnüm edən bir-iki abidəsindən Azərbaycanın öz ərazilərini "təmizləməsini" əldə bayraq edərək ölkəmizə qarşı qərəzli mövqedə olduğunu qətiyyən gizlətmir. Maraqlıdır, görəsən sayı-hesabı olmayan həmin o məhv edilmiş maddi-mədəniyyət abidələrinə görə bu qurum həqiqətən səsini çıxarmaq istəmirmi? Əgər doğrudan da bundan sonra belə həqiqətləri etiraf etmək üçün səsini çıxarmayacaqsa, YUNESCO adlı həmin o qərəzli bir quruma üzvlük haqqı kimi ödənişlər belə etməyə dəyməz.

***İnam Hacıyev***



MƏTLƏB

Metlebsalahov@mail.ru

## Sosial şəbəkələr: Bizə və gələcəyimizə qənim kəsilən düşmən!

Sosial şəbəkələr... cəmi 20-25 il öncə heç kimin ağlına gəlməzdi ki, bütün cəmiyyət nə vaxtsa vatçap, tik-tok, feysbuk aludəçisi kimi ağır "xəstəliyə" düçar olacaq. Əslində, normal halda sosial şəbəkələr gündəlik iş rejimi, ünsiyyət və əlaqə axımından əsrimizin ən gözəl yeniliyidir. Dünyanın inkişaf etmiş ölkələrində bu sahədən sürətli informasiya üçün, vaxt itirmədən səmərəli ünsiyyətə sahib olmaq üçün, daha çox məlumat əldə etmək və bildiklərini artırmaq üçün istifadə olunur. Amma min təəssüf ki, biz tərəflərdə bu ən təhlükəli, hətta on düşmənə bərabər qorxunc "silah" kimi özümüzə qarşı işlədilir...

Sosial şəbəkələrdən asılılıq və aludəçilik artıq qorxunc şəkil almağa başlayıb. Elə bir aludəçilik ki, bu gün bütün sosial və psixoloji fəlakətlərin ana səbəbi, əsl mənəviyyat "qatili" kimi acı tablo şəklində qarşımızda dayanıb. Kişiliyin, ar-namusun, düzgünlük və insanlığın məhv edildiyi, cinsi azlıqların, fahişə ləçərlərin, xuliqan və psixozların, ərini 3 uşaqla evdə atıb cavan oğlanlara qaçan üz qarası evli "qadınların", ailə-uşağını atıb "alfonsluq" edən bişərəf "ərlərin" reklam BAZARINA çevrilib sosial şəbəkələr. Bizi özümüzə yadlaşdıran, yenicə gözünü açan azərbaycanlı uşaqları soykökünə ata-baba adətinə düşmən kimi yetişdirən bu sosial şəbəkələr artıq AZƏRBAYCANÇILIQ mənsubiyyətinin də axırına çıxmaq üzrədir. Bəli, heç bir izahsız milli mənəviyyatımız, azərbaycanlı kimliyimiz üçün tam bir işğal faktıdır sosial şəbəkə mifi. Sosial şəbəkələrdə milli kimliyimizin göz görə-görə məhv edilməsi Azərbaycan xalqına qarşı 10 erməni işğalına bərabər bir cinayət dosyesidir. Artıq yeni azərbaycanlı nəsli bu sosial şəbəkələrdə beyinləri məhv edilən informasiyalarla böyüyürlər. Beyinləri "yuyulan", milli kimliyinə nifrət ruhunda böyüyən gələcək cəmiyyət üzvləri yetişdirilir bu fəlakət ocağında. Hətta hazırkı dövrdə sosial şəbəkə aludəçiliyi narkotika asılılığını çoxdan geridə qoyub...

Diqqət edin: artıq əksər insanlarda sosial şəbəkələrdən asılılıq kütləvi hal alıb. insanlar sanki sosial şəbəkəsiz qala bilmirlər. Gecə yatanda da sosial şəbəkəyə baxıb yatırlar, səhər oyananda da ilk işləri paylaşımlara nəzər yetirmək olur. Elələri də var ki, - hətta belələrinin sayı hər gün min nəfərlərlə çoxalmaqdadır - bütün gecəni səhərə qədər tik-tokda keçirir, elə oradaca yuxulayırlar. Sözsüz ki, bunun səbəbi tanışlıq və "sevgi axtarışı" olmaqla yanaşı, həm də sosial şəbəkələrdə qazanc amilinin çoxalması, insanları daha çox cəlb etmək üçün yaradılan "biznes şəraitidir." Və ən dəhşətlisi də odur ki, sosial şəbəkələrin şirnikləndirici qazanc toruna yeniyetmələr, hətta azyaşlılar daha çox düşürlər.

Bilərəkdən, "qazanmaq həvəsi" yaradaraq gələcək nəsli sosial şəbəkə tiryəkinə qurban edir, onları əxlaq yoxsulu olanların, cinsi azlıq gədələrin, fahişə və ailə tərbiyəsindən yoxsul olanların qarşısına qurbanlıq yem kimi atırlar. Təəssüf ki, artıq hiss edilmədən bu sosial şəbəkələr gələcəyimizin qəbrini qazmağa başlayıblar belə...

Təəssüf ki, son bir neçə il ərzində sosial şəbəkələr əsl xaotik vəziyyətdədir. Heç bir sərhəd tanımayan məlumat yayımı, dövlət və milli maraqların gözlənilməməsi, ailə həyatından tutmuş ən kritik dövlət və siyasi məsələlərə qədər hər şeyin hədəfə alındığı sosial şəbəkələrdə nəzarət mütləq tənzimlənməlidir. Tənzimləmə mexanizminin olmaması isə olduqca təhlükəlidir. Müharibə zamanı dövlətin məcburən interneti məhdudlaşdırmağa məcbur olması dediklərimiz üçün bariz nümunədir. Sosial şəbəkələr nəzarətsiz poliqona çevrilib və bu proses dayandırılmasa, cəmiyyət olaraq bunun acı nəticələrini uzun illər çəkməli olacağıq.

Digər bir məqama diqqət edin. Artıq yüz illərin azərbaycanlı ailə dəyərləri sosial şəbəkə arsenalında bilərəkdən məhv edilir. Sosial şəbəkələr, artıq Azərbaycanın min illərdən günümüzə çatan ailə dəyərlərinin əsl "qatilinə" çevrilib. Təsəvvür edin ki, sosial şəbəkələrdə ər-arvad arasındakı xəyanətlər biabırçı həddə çatıb. Evli qadınların və kişilərin qarşılıqlı xəyanət və gizli yazışmaları ailə dağılmasını və boşanmaları pik həddinə çatdırıb. Ailələrdəki boşanma səbəbləri arasında ən "dəbdə olanı" sosial şəbəkələrdəki xəyanətlərdir. Bu, bir xalqın milli genefondu üçün olduqca təhlükəli insidentdir. Sosial şəbəkə bu gün bizim milli kimliyimiz üçün min düşmənə bərabərdir. Düşmən bizə silah tuşlayırsa, sosial şəbəkələrdə gələcəyimiz "gülə-gülə" məhv edilir...

# İslam dünyasından Şuşaya açılan qapı




Milli-mənəvi dəyərlərə malik olan Azərbaycan xalqı kimliyini tarixi hadisələrin gedişində təsdiqləyib. 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması Azərbaycanın mübarizələrlə dolu həyatında mücadilə apararaq azadlıq eşqini reallaşdıran xalq olduğunu dünyaya mesaj olaraq çatdırdı. Bütün aparıcı beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanımasına, dəstəkləməsinə, beynəlxalq tədbirlərdə və platformalarda həqiqətlərini çatdırmaq istiqamətində böyük işlər aparılmasına baxmayaraq, heç bir səmərəsi olmadı. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika 44 günlük Vətən müharibəsində döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir Yumruq" əməliyyatını sürətlə və az itki ilə reallaşdırmağa imkan verdi. Döyüş meydanında əməli təsdiqini tapan "Qarabağ Azərbaycandır və nida" həqiqəti milli birliyimizin, haqqın və ədalətin Zəfəri kimi tariximizə yazıldı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. 2020-ci ilin 10 noyabr tarixində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı. 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazaraq erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan yeni dövrünə qədəm qoyaraq məsafəsindən, qitəsindən asılı olmayaraq, hər bir kəsə böyüklüyünü, xalq-iqtidar birliyini, iqtisadi gücünü, əzmini təqdim edir. Dövlət başçısının rəhbərliyi ilə hərb meydanında azadlığı, müstəqilliyi yolunda mübarizə aparan, mücadilə edən Azərbaycan yeni reallıqlar yaradaraq işıqlı, daha uğurlu bir yola qədəm qoyub.

28 il həsrət qaldığımız qədim Şuşamıza yollar açılıb. Şuşanın başı üstünü alan qara buludlar səmtini dəyişib. Alınmaz qala, mədəniyyətimizin beşiyi Şuşanın al, əsrarəngiz bir libasda nəbzi böyük Zəfər atəşi ilə həmahəng döyünür. İllərlə həsrətdə qaldığımız və halından xəbər tuta bilmədiyimiz Qarabağın tacı yeni bir ruzigarını yaşayır. Sınmayan, əyilməyən məğrur Şuşa qapısından qovduğu düşmənə kimliyini sübut edərək, Şuşa dağlarından, Cıdır düzündən sezilən intizara son qoydu və buzlaşmış, donmuş nəfəsinə təbiətin rəngarəngliyi istilik gətirib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı səsləndirdiyi bu fikirlər və xalqımıza belə müjdənin verilməsi tarixi yaddaşımızda bir aforizmə çevrildi. Artıq biz Şuşaya qayıtmışıq. Tarixi yaddaşı əsrlərin sorağı olan Şuşaya. O Şuşaya ki, daşlaşmış yaddaşında tariximiz, keçmişimiz yaşayır. Bu torpaqdan boy atan böyük sənətkarların sənət dünyasına şahidlik edən Şuşanın hər daşında, sənət məbədlərində səsi, böyük bir irsi daşlaşıb. İllərin qarı, yağışı o irsi yuyub apara bilməmişdir. Tarixdən bizə məlumdur ki, Azərbaycan xalq musiqisinin inkişafında və formalaşmasında Şuşa şəhərində yetişən xanəndə və musiqişünasların müstəsna xidmətləri olub. Qarabağ xanəndələri muğam sənətini daha da inkişaf etdirib, onu daha da zənginləşdiriblər. Şuşanın klassik xanəndələri bütün Qafqazda, Mərkəzi Asiyada, Yaxın və Orta Şərq ölkələrində məşhur olan böyük və möhtəşəm muğam ifaçılığı məktəbi yaradıblar.

### ŞUŞA, "CIDIR DÜZÜ", "İSA BULAĞI" HƏSRƏTİNDƏ OLDUĞU ZAMANA SAHİBDİR

Azərbaycanın ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olan Şuşanın tarixi zamanından oxuyuruq ki, XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Xalq əfsanəsinə görə isə bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu "Şuşa" adlandırmışlar. Demək, bu büllur kimi saf məkandan hər şey aydın və şəffaf görünür, elə olduğu kimi.

Belə bir şəhərin əvvəlki görkəmini özünə qaytarması, eləcə də dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün görülən sürətli işlər Şuşaya olan qayğının təzahürüdür. Dövlət başçısının məlum Sərəncamı ilə Şuşa şəhəri ölkənin Mədəniyyət paytaxtı elan edildi. Bu münasibət qədim şəhərin özəlliklərindən qaynaqlanır. Beləliklə, Şuşa azadlığının ilk dövrünə mədəniyyət paytaxtı kimi qədəm qoydu və bu yol onun beynəlxalq aləmdə tanınması üçün geniş imkanlar açmış oldu. Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələnmiş büstlərinin Şuşada yenidən əvvəlki yerlərinə qoyulması, mədəniyyət şəhərində vaxtilə keçirilən "Xarıbülbül" festivalının bərpa olunması bu məkandan işıq sürəti ilə dünya ölkələrinə yayıldı. Dünyanın gözü şəhərin gözəlliyinə yönəldi. 2022-ci il dövlət başçısı tərəfindən Şuşanın bərpasının sürətləndirmək məqsədilə "Şuşa ili" elan olundu. Diaspor Gənclərinin III Yay Düşərgəsinin iştirakçıları Şuşada olaraq tarixi Zəfərimizin təntənəsinin şahidi olmaqla yanaşı, Azərbaycanla bağlarını daha da möhkəmləndirmək, ölkəmizi uğurla təmsil etmək, yeni dostlar qazanmaq imkanı əldə etdilər. Şuşada Azərbaycan və Özbəkistan şairlərinin iştirakı ilə "Məclisi Fəramuşan" şairlər məclisi keçirildi. Hər iki ölkənin mədəniyyət, ədəbiyyat nümayəndələrinin tarixi Şuşa şəhərində bir araya gəlməsi, dünyaya böyük mədəniyyətimiz, sənətimiz, qardaşlığımız və birliyimizi göstərmək və ədəbiyyat sahəsində gözəl əməkdaşlıq platformasını ortaya qoyması təqdirəlayiq hal kimi dəyərləndirildi.Şuşa şəhərinə qonaq gələnlər Bülbülün ev-muzeyi, Molla Pənah Vaqifin Məqbərəsi, Yuxarı Gövhər Ağa məscidi, Aşağı Gövhər Ağa məscidi, Qazançı kilsəsi, Şuşa qalası və Cıdır düzü, erməni separatçıları tərəfindən dağıdılmış Qarabağ xristian kilsələri ilə tanış olaraq yararsız hala salınan məkanlar haqqında təsəvvürlərinin daha da genişləndirmiş oldular. Şuşa dünyaya açıq qapıdır. Bu gün Şuşa dağları həsrətlə yaşadığı, acıdığı musiqimizə, sənət dünyamıza qovuşdu. Artıq hər kəs rahatlığa qovuşub. Dini-mədəniyyət abidələrimiz təmir bərpa olunur. Şuşa, "Cıdır düzü", "İsa bulağı" həsrətində olduğu zamana sahibdir.

### TARİX SUSMUR, DANIŞIR...

Sovet dövründə Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Ümummilli Lider Heydər Əliyev bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət ayırırdı. Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Ulu Öndər Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşmışdır. Ermənilərin Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində 1992-ci il mayın 8-də Şuşa şəhəri işğal edildi və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasəti həyata keçirildi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini yerlə-yeksan etmiş, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini və s. dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər.Ümummilli Lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək deyirdi: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Bəli, tarix susmur danışır  İşğaldan azad olunan Şuşada qısa zamanda həyata keçirilən yenidənqurma işləri nəticəsində şəhər dünyanın ən gözəl məkanları siyahısında öz layiqli yerini tutacağına şübhə yoxdur. Heydər Əliyev Fondu tərəfindən də bərpa layihələri həyata keçirilir. Bunların sırasına Mehmandarovların malikanə kompleksinin təmir və bərpası, dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması, Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işləri, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Şuşa yaşayır və qaynar, yeni dövrü onun işıqlı gələcəyinin lap yaxında olduğundan xəbər verir.

Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçildi. Əsrarəngiz, füsunkar təbiəti, nadir tarixi-memarlıq abidələri, zəngin irsi bu şəhərin "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmasında əsas faktorlardandır. Bu barədə qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunmuşdu. İl ərzində türk dünyasının mədəni tədbirləri keçirildi və bu hələ də davam etməkdədir. Şuşanın mədəni həyatının canlanmasına dəstək məqsədilə musiqi festivalları, poeziya günləri, çoxsaylı yerli və beynəlxalq mədəni tədbirlər keçirilib. Qarabağın tacı olan Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi böyük həqiqətlərə söykənir. Şuşa şəhəri nəinki Azərbaycanın, türk dünyasının, eləcə də bütün dünyanın mədəniyyət paytaxtı elan olunmağa layiq olan şəhərdir. Zəngin və şanlı tarixi keçmişə malik olan Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən, məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir.

### "İSLAM DÜNYASININ MƏDƏNİYYƏT PAYTAXTI"

Türk dünyasının mədəniyyət paytaxtından estafet islam dünyasına ötürüldü. Belə ki, dövlət başçısının Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzaladı. Bildiyimiz kimi, 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildi. Bu qərar islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və İslam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində müstəsnadır. Tarixi keçmişi, dini. mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan töhfəsini verir. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılıb və təhqir olunubdur. Bu gün Şuşaya gələcək hər kəs bu mövcud vəziyyəti bir daha görəcəkdir. Qısa bir zamanda cənnəti xatırladacaq Şuşa nəinki türk, islam dünyasının bütün bəşəriyyətin mədəniyyət paytaxtına çevriləcəkdir. Şuşamızda keçiriləcək tədbirlərdə iştirakçı olacaq hər bir kəs möcüzələr diyarı ilə xoş təəssüratlarla ayrılacaqlar.Şuşa şəhəri xalqımız üçün son dərəcə əziz, müqəddəs bir məkandır və bu şəhərə olan sevgi, bağlılıq hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Bu gün Azərbaycanın, türk və islam dünyasının mədəniyyət beşiyi qədim Şuşa yeni bir dövrünü yaşayır.

***Zümrüd BAYRAMOVA***

# Erməni iştahı, iddiası və...

*Yaxud, Azərbaycan-Macarıstan münasibətlərinə Ermənistandan baxış*

Bir müddət əvvəl erməni mediası xəbər yaymışdı ki, Ermənistan NATO-da Türkiyəni əvəz edəcək. Əlbəttə, bu, erməni təfəkkürünün məhsulu idi, güman edirdilər ki, əgər Türkiyə NATO-dan çıxarılsa, onun yerini Ermənistan tutacaq. Daha anlamırlar ki, Ermənistanın bu quruma daxil olmasə üçün kiminsə buranı tərk etməsinə ehtiyac yoxdur. Əgər layiq deyilsənsə, NATO-ya səni qəbul etməyəcəklər. Bundan bir müddət əvvəl məlumat verilmişdi ki, NATO Ermənistanı öz sıralarına qəbul etmək istəyir. Sonradan bəlli oldu ki, bu xəbəri Ermənistanın rəsmi dairələri tirajlayıb. NATO-dan isə bildirildi ki, Şimali Atlantika Blokunun genişləndirilməsi imkanlarını nəzərdən keçirilmir və İrəvanın özü də təşkilata üzvlük üçün müraciət etməyib. Sən demə, NATO-



**Vəli Vəliyev**

nun Genişlənməsi üzrə Avropa Komitəsinin nümayəndəsi Fellinger erməniləri ümidləndirən açıqlama verib. Onun NATO ilə rəsmi heç bir əlaqəsi yoxdur. O, NATO əməkdaşı deyil, onun fikirləri onun özünə məxsusdur və alyansın fikirlərini əks etdirmir. Rəhbərlik etdiyi qurumun adı ”NATO-nun Genişlənməsi üzrə Avropa Komitəsi” olsa da, alyansın komitəsi və ya orqanı deyil”.

Beləliklə, ermənilər xəyalllarının qurbanı olduqlarına bir daha şahidlik etdilər. Bir daha ermənilər anladılar ki, hərbi bloka qoşulmağa can atmayan ölkələrlə uzunmüddətli əməkdaşlıq və etibarlı tərəfdaş olmaq Şimali Atlantika blokunun nizamnaməsinə uyğun deyil. Halbuki, Ermənistan heç vaxt bu quruma üzv olmağa layiq görülməyib.

İki gün öncə NATO üzvü olan Macarıstanın Baş naziri Viktor Orban Azərbaycana səfər etmişdi. Beynəlxalq tədbir çərçivəsində Azərbaycanla bütün sferalarda əməkdaşlıq məsələləri müzakirə olunmuşdu. Ermənistanda isə bu səfər çox böyük ajiotajla qarşılanıb. Macarıstanı və bu ölkənin başçısını təhqir etməkdən çəkinməyən ermənilər Orbanın səfərini əsl facə adlandırıb. Ermənilər SPECA sammitində iştirak eən ölkələri də aşağılamağa cəhd ediblər. Azərbaycan, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanı demokratiyadan kənar dövlət adlandıran Ermənistanda onların iddia etdikləri nəsnələrdən bir əsər-əlamət varmı? Monoetnik və avtoritar bir ölkə sayılan erməni dövlətində yaşayanlar niyə öz gözlərində tiri görmürlər, bu anlaşılan deyil. ”Halva, halva deməklə ağız şirin olmur ki”.

Ermənistandakılar Orbanın bu sammitdə fəxri qonaq kimi iştiraka dəvət olunmasını qəbul etmək istəmirlər. Ermənilər bir az da irəli gedərək iddia edirlər ki, adıçəkilən dövlətlərlə bir sırada olmaq onun aid olduğu yeganə yerdir. Guya buna görə demokratik dövlətlərin liderləri arasında Macarıstanın yeri yoxdur. Orbanın ”Macar xalqının ən xoş arzularını və Azərbaycanın suverenliyinin bərpası və regionda vəziyyətin sabitləşməsi münasibətilə Əliyevi təbrik edirik” deməsi erməniləri çaş-baş salıb, ovqatlarını təlx



edib. Bəli, Macarıstanın baş naziri Qarabağın Azərbaycanın əzəli ərazisi olduğunu vurğulaması, Ermənistan dövlətinin işğalçı olduğunu bir NATO ölkəsinin dilindən səsləndirilməsi İrəvan üçün öldürücü zərbədir.

Azərbaycan Prezidentinin Bakı ilə Budapeşt arasında əlaqələrin və dostluq əlaqələrinin hərtərəfli inkişafından məmnunluğunu ifadə etməsini ermənilər bir hadisə ilə bağlayıb daha çirkin bir yanaşma ortaya qoyurlar. Belə ki, Macarıstanda erməni zabiti Qurgen Markaryanın öldürülməsinindən sonra Ramil Səfərovun Azərbaycana ekstradasiyasını qanunsuzluq adlandırılar. Niyə? Niyə Ermənistanda anlamaq istəmirlər ki, bu, bütün ölkələr arasında razılaşmaya tam olaraq uyğundur. Ermənilər düşünürdülər və israr edirdilər ki, Ramil Səfərov Ermənistaa təhvil verilməlidir. Onların təbirincə b, tam olaraq qanunauyğun sayıla bilərdi. Amma yanılırlar. Hər şey ermənilərin arşını ilə ölçülmür.

Qeyd edək ki, Ramil Səfərov Bakıda cəzasının qalan hissəsini çəkmək üçün Macarıstanın dövlət başçısının sərəncamı ilə əfv olunub. Ermənistanda isə düşünürlər ki, Macarıstan qanunları məhkəmə qərarı ilə pozulub və təkcə bu hadisə Macarıstanın Aİ və NATO-dan çıxarılmasına kifayət edir. Amma bu, baş verməyib. Macarıstan NATO-da hələ də var.

Erməniləri narahat edən bir məsələ də var. Oktyabrın 26 və 27-də Belçikanın paytaxtında keçirilən Aİ liderlərinin sammitində Orban Ukraynaya 50 milyard avro maliyyə yardımı ayrılmasına qarşı çıxıb. Macarıstanın baş naziri ”Ukrayna üçün pul lazımdırsa, bizim üçün də pul lazımdır” kimi bəyanatlar əsasında Aİ-ni daha vacib məsələlərin həllinə yönəltməyə çalışıb. Aİ-də isə Macarıstanın mövqeyi dəstəklənib. Üstəlik, ona başqa ölkələri də qiymətləndirmək imkanı verilib. Belə ki, noyabrın 10-da Orban bildirib ki, Avropa İttifaqı Ukrayna ilə üzvlük danışıqlarına girməməlidir. Ermənilər isə bunu Orbanın Putinin maraqlarına xidmət etməsi kimi hallandırırlar.

Nədənsə Ermənistan Cənubi Qafqazda gedən 30 illik proseslərin, işğal faktının arxasında İrəvanın və onun Avropadakı dostlarının əli olduğunu unudur. Ermənistan onu da qəbul etmək istəmir ki, dövlət kimi yaradılmasında əsas məqsəd türk-müsəlman dünyasında məxlətə salmaq, qarışıqlıq yaratmaqdır. Bunu da hələ ki, Ermənistan bacara bilib. Amma 20220-ci ilə qədər. Bundan sonra proseslərin İrəvanın arzu və istəyi ilə getməyəcəyi gün kimi aydındır. Çünki, Cənubi Qafqazdakı bütün vəziyyət, o cümlədən proseslərin hansı istiqamətə gedəcəyi Azərbaycandan soruşulacaq.

---

## “Qarabağ Universiteti özü ilə birgə gəncliyi Qarabağa aparacaq”

*EKSPERT FİKRİ*




“Məlumdur ki, ötən gün Prezident İlham Əliyev Xankəndi şəhərində Qarabağ Universitetinin açılması ilə bağlı sərəncam imzalayıb. Bu kifayət qədər tarixi bir hadisədir. Təbii ki, ölkədə hər hansı bir ali təhsil müəssisəsinin yaradılması ilə bağlı sərəncamın verilməsi, ümumiyyətlə, bununla bağlı addımların atılması müsbət qarşılansa da, tarixi aspektdən dəyərləndirilməyib. Burada söhbət Qarabağ Universiteti, Xankəndi şəhərində yaradılan ali təhsil müəssisəsindən gedir. Bunun özü bir tarixdir. Reallaşmasını çoxdan gözlədiyimiz zəfərin nə yaxşı ki ali təhsili də Qarabağ Universiteti sayəsində həyata keçmiş oldu”. Bu sözləri SİA-ya açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, təhsil məsələləri üzrə tədqiqatçı Elmin Nuri deyib.

Elmin Nuri sözlərinə belə davam edib: ”İnanırıq ki, Qarabağ Universiteti digər ali təhsil müəssisələrindən fərqlənəcək. Artıq fərqlənib, çünki Qarabağın adını daşıyır, Xankəndi şəhərində yerləşir, zəfərin simgəsi, nişanələrindən biridir. Bununla kifayətlənmək olmaz. Bir neçə ay bundan öncə elm və təhsil naziri Emin Əmrullayev Qarabağ Universitetində tibb ixtisasının tədris olunacağını bildirmişdi. O zaman mən açıqlamamda bildirmişdim ki, tibb profili olmayan bu universitetdə bu ixtisas tədris ediləcəksə, bu həmin universitetin böyüklüyündən, onun çoxşaxəli, akademik universitet olmasından xəbər verir. Bu gün bizdə ATU-dan başqa yalnız Naxçıvan Dövlət Universitetində tibb sahəsi var. Qarabağ Universitetində də bu ixtisasın tədrisi bu universitetin nə qədər geniş bir şaxəli olacağından xəbər verir. Könül istərdi ki, burada İT, Mühəndislik, dəqiq və təbiət elmləri üzrə ixtisaslar tədris edilsin.

Qarabağ Universitetinin bir özəlliyidə tədqiqatyönümlü universitet olmasından keçəcək. Bu gün bizdə sırf tədqiqatyönümlü universitet yoxdur. Dünyanın çağdaş təhsilli əsas meyarlarından biri də universitetlərin tədqiqat istiqamətində fəaliyyət göstərməsidir. İnanırıq ki, Qarabağ Universiteti buna nail olacaq. Qarabağ Universitetinin adlı-sanlı, yüksək keyfiyyətli kadr potensialı-professor, müəllim, alim gərəkdir. Qarabağ Universiteti özü ilə birgə Qarabağı gəncliyə aparacaq.

Təbii ki, universitetin tələbə kəsimini, gənclər ruhunu özündə əks etdirən mərkəzlər, bu universitetin törəməsi şəklində fəaliyyət göstərmiş olacaq. Qarabağ Universiteti azad olunmuş torpaqların təhsili və iqtisadi cəhətdən inkişafı üçün böyük cığır olacaq. Bu gün dünya universitetlərini ölçən onların inkişafını müəyyənləşdirən reytinq cədvəlləri var ki, təəssüf ki, bizim universitetlər oraya yaxın düşə bilmir. İnanırıq ki, Qarabağ Universitetinin tutduğu xətt, oraya göstəriləcək diqqət, şaxəli profili, dünya təhsili ilə uzlaşması bizim bu həsrətimizə son qoyacaq. Azərbaycanı təmsil edən universitetin Qarabağ Universiteti olması insanı sevindirir. Bu təbii ki, bir ehtimaldır, amma ehtimal çox keçməmiş reala çevriləcək”.

**Ayşən Vəli**

---

## XƏBƏRDARLIQ:
## Saxta içki insanı kor edə bilər!

“Azərbaycanda saxta içkilərin satışı və saxta aksizləşdirilməsi bir çox rayonlarda aşkarlanır. Bu içkilər də çox ucuz qiymətə satılır”. Bu barədə Azərbaycanda saxta içkilərin yaratdığı fəsadlarla bağlı SİA-ya danışan qida eksperti Ağa Salamov deyib. Ekspertin sözlərinə görə, kustar üsulla hazırlanan içkilərin də kimyəvi tərkibi tamam fərqli olduğuna, zəhərlənmə riski yüksək olduğuna görə insanlar zərər çəkirlər: ”Düşünürəm ki, bununla bağlı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi geniş monitorinqlər aparmalıdır”.



A.Salamov qeyd edib ki, saxta limonadlarda da böyük çöküntülər olur: ”Ümumiyyətlə qazlı, rəngli içkilər var ki, biz mütəxəssislər bunların sağlamlığa zərərli olduğunu deyirik. Çünki pH səviyyəsi onlarda 2.5, suda isə 7.4-dür. İnsana lazım olan dəyər də 7.4-dür. Kustar üsulla hazırlanan məhsullarda normativlər pozulur. Bu zaman da qida zəncirində qırılma olur. Bu da sonda zəhərlənməyə gətirib çıxarır”.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd edib ki, Azərbaycan dövləti biznes qurumları, ümumiyyətlə sahibkarlıqla məşğul olan insanlar üçün son dərəcə rahat, toxunulmaz bir şərait yaradıb: ”Lakin bundan biznes qurumları sui-istifadə edir, çox zərərli mallar istehsal edir, bazara çıxarır satırlar. Bunlardan biri də spirtli içkilərdir. Dəfələrlə Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi həbslər həyata keçirib və sübut edib ki, ən bahalı içkilər ən prestijli barlarda, kafelərdə satılır. Lakin məsələyə son qoyulmur ki, qoyulmur. Çünki qanunların zəifliyindən istifadə edilir. Hətta prestijli içkilərin butulkaları atılmır, içərisinə naməlum mayelər doldurulur. Çox təəssüf ki, belə hallar mövcuddur. Bu halların qarşısının alınması üçün DİN-in adı çəkilən qurumu daha fəal iş görməlidir”.

E.Hüseynov bildirib ki, saxta içki bir neçə dəfə içildikdən sonra insanları kor edə bilər ”Çünki bu içkilərin tərkibində sivuş yağları deyilən yağlar var. Bunlar insana çox zərərli maddələrdir. İnsanlar bunu asanlıqla ayırd edə bilməzlər. Xüsusilə üzərində istehsal və son yararlılıq müddətinin olmasına baxmaq lazımdır. Araqların saxlama müddəti 1 il, konyakların 3 il, şərablarınkı 6 aydan artıq deyil. İnsanlar bunu bilib tarixlərə fikir verməlidirlər. Bütün içkilərin üzərində aksiz markası olur. Bu markanın varlığına fikir versinlər”.

**Rəşid Qarayev**

# Azərbaycanda informasiya təhlükəsizliyi təmin olunub



Ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan informasiya-kommunikasiya texnologiyalarının inkişafı qabarıq şəkildə nəzərə çarpır. Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsindəki fəaliyyət Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt üzrə uğurla davam etdirilir. Ulu Öndərin 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" bu istiqamətin ölkəmiz üçün vacibliyini və əhəmiyyətini vurğulayan ilk rəsmi sənəd olmuşdur. Müasir dövrdə və gələcək perspektivdə İKT-nin əhəmiyyəti ön plana keçir. Müasir informasiya texnologiyaları ölkənin hərtərəfli inkişafı, əhalinin intellektinin yüksəldilməsi, həmçinin dünyada baş verən inteqrasiya proseslərinə daha aktiv cəlb olunması istiqamətində respublikamızın qarşısında yeni imkanlar açır.

Azərbaycanda informasiya təhlükəsizliyinin təmin edilməsinin qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm qanunlar, normativ aktlar, sərəncamlar qəbul edilib. Bu sahədə əlaqədar qurumlar tərəfindən konseptual, təşkilati, elmi-metodoloji, qanunvericilik, maddi-texniki əsasların yaradılması üzrə iş aparılır. İnformasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz etdiyindən, müstəqil Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri də, məhz qlobal informasiya məkanında layiqli yer tutması və inteqrasiyası idi. Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev, ölkəmizin bütün sahələrinə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verərək, bu sahənin inkişafına yönəlmiş dövlət proqramları və zəruri islahatları həyata keçirməyə başladı.

30 noyabr tarixində dünyanın bir parçası olan Azərbaycanda Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü qeyd olunur. Bu gün 1988-ci ilin 30 noyabr tarixindən keçirilir. Məhz həmin ilin noyabrında universitetlər, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olmaqla, ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompyuter virusu meydana gəldi və nəhəng itkilərə səbəb oldu. Yaradıcısının adı ilə Morris "soxulcanı" adlandırılan bu virusun vurduğu ziyan, təxminən, 100 milyon dollar həcmində qiymətləndirilmişdir.

Morris "soxulcanı" göstərdi ki, informasiya təhlükəsizliyi, həqiqətən də, çox



ciddi məsələdir və insanlar tərəfindən böyük səylər və müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir. Buna görə də, dünya ictimaiyyəti informasiya təhlükəsizliyinin təmin edilməsinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladı. Həmin vaxtdan bəri informasiya texnologiyaları, təbii olaraq, informasiya cəmiyyəti inkişaf etdikcə, bu problem daha da aktuallaşır. Bunları əsas tutaraq, 1988-ci ildə Kompyuter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi günü elan etdi. Bütün dünyada olduğu kimi, Azərbaycanda da bu gün qeyd olunur.

### CƏMİYYƏTDƏ ŞƏFFAFLIĞIN VƏ DEMOKRATİYANIN İNKİŞAFI

Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı milli strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi baxımından əhəmiyyətli rol oynadı. Görülən işlərin məntiqi olaraq, artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir.

Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bütün bunlarla yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradıldı ki, bu da, qısa müddətdə özünü doğrultdu.

### AZƏRBAYCANDA KOSMİK SƏNAYENİN İNKİŞAFINDA UĞUR

Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn, Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti kimi tarixə düşdü.

Ötən müddətdə uğur əldə edilib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin, tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, əfqan və ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azərspace -1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə yüzdən artıq televiziya kanalı yayımlanır. "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb. Hazırda "Azerspace-1" peykinin resurslarının 60 faizdən çoxu kommersiya yönümlü istifadədədir. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azərsky" peykinin də xüsusi rolu vardır. Ölkəmizi daha böyük uğurlar gözləyir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğurlu addımlardır. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan, qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Qida terroru ilə mübarizə üçün effektiv təklif



**Elçin Bayramlı**

**Kolbasa, sosiska məhsullarının istehlakı ildən-ilə artır. Ərzaq qiymətlərinin artması bir çoxlarını öz ərzaq səbətinə yenidən baxmağa vadar etsə də, emal olunmuş ət məhsulları öz mövqelərini itirmir. Bu, gündəlik həyatda sürətli qəlyanaltı və əksər bayramların məcburi atributudur.**

Mağazaların piştaxtalarda həm yerli, həm də xaricdən gətirilən kolbasalar var. Qiymət diapazonu genişdir, lakin məlum səbəblərdən əksəriyyət ucuz qiymət seqmentinə üstünlük verir, baxmayaraq ki, belə məhsullarda yaxşı heç nə olmadığını və ola da bilməyəcəyini başa düşürlər. Əlbəttə, bahalı kolbasa da faydalı deyil, lakin nisbi götürdükdə tərkibi daha yaxşıdır.

Bu yaxınlarda Qida Təhlükəsizliyi Agentliyi kolbasa məhsullarının keyfiyyətinə dair monitorinqin nəticələrini açıqlayanda məlum oldu ki, bir çox kolbasalarda üzərində qeyd edilmiş mal əti əvəzinə toyuq ətidir, bəzilərində isə ümumiyyətlə ət yox idi.

Ət bazarında periodik olaraq mənşəyi məlum olmayan ətlərə və ölmüş heyvanların ətinə rast gəlinir və çox vaxt ondan kolbasa istehsalı üçün istifadə olunur.

Bundan başqa, kolbasalara yan məhsullar- sümüklər, dəri, GMO soya, nişasta, hər cür ləzzət artırıcılar, boyalar, konservantlar vurulur ki, bunlar ləş ətindən daha təhlükəlidir.

Bir kiloqram kolbasa bir kiloqram ətdən ucuz olanda sual doğurmaya bilməz. Burada əsas xammalın- ətin xərcindən başqa, məhsulun maya dəyərinə əlavə olunan istehsal, nəqliyyat, vergilər, işçilərin əmək haqqını, satış dividentini də nəzərə almaq lazımdır. Üstəlik, şirkət qazanc da əldə etməlidir. Bu o deməkdir ki, siz məsələn, 10 manata kolbasa alırsınızsa, demək onun ilkin maya dəyəri 5 manatdır.

Vicdansız istehsalçılara qarşı pul cəzalarını təsirli adlandırmaq olmaz. Çünki onlar cərimənin məbləğindən 10 dəfə çox qazanırlar. Bizə işləyəcək mexanizmlər lazımdır. Maraqlıdır, kolbasa dükanlarının sahiblərinə öz məhsullarını canlı yemək təklif olunursa, bunu edəcəklərmi? Mən təklif edirəm ki, televiziyaların birində bir canlı yayım verilişi təşkil olunsun, kolbasa sexlərinin sahibləri orada öz məhsullarını yesinlər və əhali də baxsın. Amma kolbasa mağazalardan alınmalı, özləri ilə gətirməməlidirlər. Əminəm ki, bunu etməzlər, heç bir kolbasa istehsalçısı öz məhsulunu yeməz. Bəs belə isə, əhaliyə bu məhsulları necə yedirdirlər? Çox rahat. Bazar iqtisadiyyatı yalnız gəlir əldə etməyə hesablanıb. Necə deyərlər, biznesin vicdanı olmur. İstehsalçını, sahibkarı yalnız bir məsələ maraqlandırır- daha çox qazanc əldə etmək. Əhalinin sağlamlığı, filanı lazımsız məsələlərdir. Vicdan anlayışı isə biznesdə yoxdur.

Burada yeganə təsirli üsul belə müəssisələr üzərinə şəffaf və daimi nəzarət mexanizminin qurulması, medianın və ictimai təşkilatların nəzarətinin təmin edilməsidir. Bunun üçün ölkədə müstəqil laboratoriyalar olmalıdır. İstənilən istehlakçı məhsulu laboratoriyada yoxlada bilməli və zərərli olduğunu görərsə istehsalçını məhkəməyə verib ağır təzminat ödətdirməlidir. Əksər ölkələrdə belədir. Məhz bu səbəbdən, başqa ölkələrdə saxta və keyfiyyətsiz məhsul istehsal etmək sadəcə olaraq sərf etmir, çünki təzminat qazancdan dəfələrlə artıq olur.

Nə qədər ki bizdə belə sistem qurulmayıb, istehsalçılar əhaliyə hər cür təhlükəli zirzibili qida adına yedirəcəklər. Nəticədə genefondumuz sıradan çıxacaq, ölkə ağır xəstələrlə dolacaq. Bu isə artıq milli təhlükəsizlik məsələsidir. Qida terroru hazırda ən amansız terror vasitəsidir və buna qarşı dövlət və cəmiyyət birgə döyüşməlidir.

## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. 2023-cü il noyabrın 29-da YAP Xəzər rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Suraxanı rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.

# İnternetdə təhqir edəndə iki dəfə düşünün!

Qanunlarımıza görə təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda, internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma, min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qanunla sosial şəbəkələrdə olan təhqir hüquqi məsuliyyət yaradır. Çünki şərəf və ləyaqətin müdafiəsi konstitusion hüququmuzdur, heç bir hal şəxsiyyətin ləyaqətinin alçalmasına əsas verə bilməz. Şərəf və ləyaqəti ləkələyən, həqiqətə uyğun olmayan məlumatların təkzib edilməsi məhkəmə yolu ilə tələb edilə bilər. Həmçinin, şəxsin buna görə təzminat və ya kompensasiya almaq hüququ var.

Buradan sual yarana bilər, bəs əgər fake, yəni saxta hesablarla sizə qarşı təhqir yazıblarsa onda nə etmək olar? CPM - 177-ci maddəsində göstərilib ki, cinayət prosesini həyata keçirən orqan istintaqın normal gedişini təmin etmək



üçün istintaq hərəkətini məcburi apara bilər. İP və data ünvanının əldə edilməsi üçün "Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi" istintaq hərəkətlərinin məcburi aparılmasına məhkəmə qərarının alınması tələb olunur. CM 148 (İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə) maddəsi isə ictimai xüsusi ittiham qaydasında prokurorluq orqanları tərəfindən istintaq edilir.

Bəzən şahidi oluruq, kiminsə şəxsi intim şəkillərinin və ya video görüntülərinin yayılması ilə bağlı hadisələr baş verir. Belə paylaşımların bəziləri "tələb etmə yolu ilə şantaj", bəzilərində isə "qisasçılıq" niyyəti önə çıxır. Qanunvericiliyimizdə şantaj yolu ilə tələb etmə kriminallaşdırılsa da, qisasçılıq və ya istəyə bağlı olaraq, yəni səbəbsiz kiminsə publik olmayan intim görüntülərinin yayılması kriminallaşdırılmayıb. Bu səbəbdən də belə vəziyyətlərdən zərər çəkənlərin sayı get-gedə artmaqdadır. Hüquqşünaslar hesab edir ki, bunun qarşısını almaq üçün bu əməllərə görə cinayət qanunvericiliyində ayrıca sanksiyalaşdırılmış norma olmalıdır. Məlumat üçün qeyd edək ki, Aropanın bəzi ölkələrində artıq bu yöndə addımlar atılır və "görüntü əsaslı seksual qısnama" haqqında cinayət qanunvericiliyi qəbul edilir.

### Söz azadlığı ilə təhqir qarışdırılır

Söz azadlığı və düşüncənin sərbəst ifadə edilməsi, problemsiz yayılması cəmiyyət üçün son dərəcə vacibdir. Fikir



və söz azadlığı özlüyündə bir məqsəddir, fiziki və mənəvi azadlıq demokratik həyat tərzinin vacib elementidir. Lakin söz azadlığı ilə başqasının şəxsiyyətini alçaltma bir-birinin sərhədlərinə girəndə vəziyyət qarışır.

İnsan hüquqları iki əsas anlayışa əsaslanır - insan azadlığı və düşüncənin azadlığı. Yəni həm fiziki cəhətdən təhlükəsizlikdə olmaq, həm də fikir və düşüncə baxımından azad olmaq demokratik cəmiyyətdə insan hüquqlarının təməl qanunlarıdır. Bütün sivil cəmiyyətlərdə ləyaqəti alçaldan, pis rəftar və işgəncənin qadağan edilməsi, insanların fikir və inanclarının toxunulmazlığı, hüquqi sənədlər və demokratik konstitusiyalarla qorunur. Hər kəs, xüsusən də dövlət vətəndaşın qanuni hüquq və azadlıqlarına hörmət etməlidir.

Azərbaycan qanunlarında olan bolşuqlardan biri də məhz bu sahədədir. İnternetdə şəxsiyyəti təhqir edən, şərəf




və layaqəti təhqir edən yazıların fakt kimi məhkəmədə istifadə edilə bilər. Amma bunun mümkün olması üçün vətəndaş jurnalistikası haqqında qanun, eləcə də internetdə şərəf və ləyaqətin alçaldılması haqqında qanunvericilik olmalıdır.

Cinayət qanunvericiliyində konkret olaraq təhqir və böhtan barədə ayrıca maddələr nəzərdə tutulub. Bu qanuna görə şəxsin barəsində rüsvayedici, şəxsiyyətini alçaldan, imicinə zərər vuran, sosial statusunu zərbə altına qoyan yalan məlumatların yazılması da nəzərdə tutulur. Rüsvayedici məlumatlar kütləvi çıxışlarda, mətbuatda və kütləvi nümayiş etdirilən hər hansı bir əsərdə ola bilər. Təhqir etmək şəxsi alçaldıcı sözlərə məruz qoymaq, böhtan etmək isə şəxsin barəsində həqiqətə uyğun olmayan hər hansı məlumatların yayılması deməkdir. Əgər söhbət konkret olaraq böhtandan gedirsə bu, Cinayət Məcəlləsinin 147-ci, 148-ci (böhtan atma, şərəf və ləyaqətin təhqiri) maddələri ilə məsuliyyət da-



şımaq anlamına gəlir.

### Başqasının şərəf və layaqətini alçaltmaq sizə baha başa gələr

Başqa şəxsin şərəf və ləyaqətini nalayiq formada alçatmaq həmin şəxsin şəxsiyyətinə mənfi qiymət verməklə, onu əhatənin, yəni dostlarının, tanışlarının gözündə nüfuzdan salan hərəkətlərdə xarakterizə olunur. Şərəf və ləyaqəti alçatma hərəkətləri müxtəlif formalarda həyata keçirilə bilər. Yazılı, şifahi və ya bədən hərəkətləri ilə. Şifahi formada şərəf və ləyaqəti alçaltmaq söyməklə, nalayiq sözlər deməklə, haqqında ələsalıcı ifadələr işlətməklə və s. törədilə bilər.

Ləyaqətin yazılı formada alçaldılması məktubda, hər hansı müraciətdə, məsələn ərizə, şikayət və yaxud təklifdə və s. əks oluna bilər. Şərəf və ləyaqəti alçaltmaq birinin üzünə tüpürməklə, şillə vurmaqla, mimika və jestlərlə başqa şəxsi yamsılamaqla və s. hərəkətlərlə də edilir. Şərəf və ləyaqəti alçaltmaq təhqir olunan şəxsin iştirakı olmadan da törədilə bilər. Mühüm olan odur ki, şərəf və ləyaqəti kütləvi çıxışda, kütləvi nümayiş etdirmə və kütləvi informasiya vasitəsilə, internet və sosial şəbəkə vasitəsi ilə alçaldılmış olsun.

Kütləvi çıxış dedikdə, hər hansı şəxsin şərəf və ləyaqətini alçaldan və ya onu nüfuzdan salan məlumatları ən azı 2 nəfər kənar şəxsin görə, eşidə və qavraya biləcəyi formada ifadə etmə başa düşülür. Kütləvi nümayiş etdirilən əsər dedikdə, ən azı 2 nəfər kənar şəxsin görə və ya qavraya biləcəyi şəraitdə nümayiş etdirilən əsərlər (fotoşəkillər, rəsm əsərləri, kinematoqrafiya əsərləri, reklam və sair) başa düşülür. Kütləvi informasiya vasitəsi və kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatı dedikdə, dövri mətbu nəşrlər, teleradio proqramları, kinoxronika proqramları, sosial internet şəbəkələri, dövri mətbuatın və teleradio kanallarının internet saytları və digər yayım formaları başa düşülür. Qanun bu zaman ölçü götürür.

Bura Facebook, İnstagram, TikToK, Youtube platformasını da əlavə edə bilərik. Təhqirə görə 16 yaşına çatmış fiziki şəxs və daha böyük şəxslər cinayət məsuliyyətinə cəlb oluna bilər. Qüvvədə olan Cinayət Məcəlləsinə əsasən isə təhqirə görə aşağıdakı cəza nəzərdə tululur: 1000 manatdan 5000 manatadək miqdarda cərimə və ya 240 saatdan 480 saatadək müddətə ictimai işlər və ya 1 ilədək müddətə islah işləri və ya 6 ayadək müddətə azadlıqdan məhrum etmə. Lakin bir çox hallarda bundan məlumatsız olan insanlar məhkəməyə müraciət etmir və qarşı tərəf cəzasız qalır.

### Saxta profildə gizlənən saxtakarlar

İnternetdə şərəf və layəqəti alçaldan insanların cinayət məsuliyyətinə cəlb edilməsi üçün bir çox ölkənin sərhədləri çərçivəsində internet-xüsusi təyinatlı yaradılıb. İnternetdə xəbər və məqalələri müzakirə edərkən istifadəçilər respublikanın tanımış şəxsləri barəsində xoşagəlməz ifadələr işlədir, çox vaxt onları təhqir də edirlər. Təhqir edənlərin əksəriyyəti öz kompüterindən yox, hər hansı internet-klubda, saxta ad altında iş görür.

Razılaşarsınız ki, bizim ölkədə də hər hansı şəxsin ünvanına təhqir, söyüş yağdıran "qəhrəmanlar" da az deyil. Daha çox "Facebook"da məşhur olan bu insanlar saxta profil açır, qeyri-müəyyən profil rəsmi qoyur, "haqqında" bölməsinə dəqiq heç bir şey yazmır. İsveçdə oturub hazırda Mərakeşdə olduğu barədə statuslar yazır. Tapşırıq alanda isə ona nişan verilmiş şəxsin haqqında yalan-böhtan yazır, şantaj edir. Məhz belə anda xüsusi təyinatlı internetə ehtiyac duyulur.

***Lalə Mehralı***

## "Azərbaycanda ən böyük ekoloji problemləri ermənilər yaradıb"

*ŞƏRH EDİLDİ*

"Ölkədə bir çox istiqamətlər üzrə ekoloji problemlər mövcuddur. Bəzilərinin həlli istiqamətində artıq müəyyən işlər görülür". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Sadiq Qurbanov deyib. Deputat bildirib ki, rayonlarda məişət tullantılarının təmizlənib, daşınması və emalı məsələsi ilə bağlı problemlər var: "Belə ki, Bakıda Təmiz Şəhər ASC tullantıları təmizləyir, növünə görə ayırır və emalı mümkün olanların emalı prosesini həyata keçirir. Lakin bölgələrdə bu proses həyata keçirilmir və bölgələrdə adətən zibil və tullantılar sadə poliqonlara atılır. Bu zaman isə tullantılar səbəbilə torpaq çirklənir.



Bu gün Azərbaycan ekologiyasının ən böyük problemlərindən biri də suvarma kanallları ilə bağlıdır. Çünki hazırda suvarma kanalları torpaq məcralıdır. Suvarma kanalının torpaq örtüyü üzərində olması isə həm torpağın suyunu canına çəkərək su itkisi yaratmasına, həm də şoranlıq yaranmasına səbəb olur. Buna görə də suvarma kanalının beton örtüyü üzərində olması daha məqsədəuyğundur. Təəssüf ki, hazırda ölkəmizdə cəmi 30 faizə qədər suvarma kanalı beton örtüyü üzərindədir. Digər mühüm ekoloji məsələlərdən biri də qurumuş Hacıqabul gölünün yenidən bərpa edilməsi ilə bağlıdır.

Azərbaycanda ən böyük ekoloji problemləri ermənilər yaradıblar. Hazırda işğaldan azad edilmiş ərazilərdə aparılan monitorinqlər nəticəsində görürük ki, böyük meşələr talan edilib, dəyərli ağaclar qırılıb və qırılmış ağaclar nəticəsində ermənilər mebel sənayelərini inkişaf etdiriblər. Eyni zamanda 30 il müddətində ərazilərimizə daim mina basdırıblar. Bunun nəticəsidir ki, işğaldan azad edilmiş ərazilərimizdə 9000 kvadrat kilometr ərazi minalarla çirkləndirilib. Bundan əlavə digər ölkələrdən Azərbaycana axan çaylar da çirklənmiş vəziyyətdə olur və ölkə ərazisindəki çayların da çirklənməsinə səbəb olur.

Sadalananlar kimi daha bir çox ekoloji problemləri vurğulamaq mümkündür. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi hazırda bir çox istiqamətlər üzrə ekologiyanın bərpası üçün işlər görür. Xüsusilə də işğaldan azad olunmuş ərazilərdə ağacların əkilməsi prosesi sürətlə həyata keçirilir".

***Səbinə Hüseynli***

ŞƏRH+AKTUAL

# Qərbli ekspert: ”Ermənistan təhlükəli oyun oynayır”

## Qərb son anda İrəvanı Moskva ilə üz-üzə qoyub kənara çəkiləcək

Qərbin Ermənistana qahmarçıxma oyunbazlıqları reallıqda digər görünməyən amilləri aktuallaşdırır. Daha dəqiq desək, Qərb Ermənistanda öz maraqlarını gerçəkləşdirməyə çalışmaqla regiona nəzarət mexanizmini işə salmaq arzusundadır. Ancaq daha bir faktor budur ki, sonrakı proseslərdə Ermənistanın hansı acınacaqlı vəziyyətə düşə bilməsi ehtimalı qətiyyən Qərb siyasi isteblişmentinin marağında deyil. Xüsusilə, Ermənistanı Rusiyanın üzərinə qısqırdan Qərb hərbi-siyasi dairələri regional dövlət olaraq Rusiyanın Ermənistana necə qulaqburması verəcəyindən əsla narahat deyil. Beləliklə, Rusiya-Ermənistan münasibətlərinin gərginliyi fonunda baş verənlər, həm də rəsmi Moskvanın diqqət mərkəzindədir və Nikol Paşinyanın hər bir açıqlaması, bəyanatı Kremldə də çox diqqətlə analiz edilir. Daha dəqiq desək, Ermənistanı bir dövlət olaraq güdaza verməyə hazır olan Qərb, reallıqda ”tutar qatıq, tutmaz ayran” prinsipi ilə hərəkətə keçib. Bunu hətta bir sıra qərbli diplomatlar da etiraf edirlər.

### Britaniyalı politoloq Aleksandr Merkuris: ”Təəssüf ki, Şərqi və Mərkəzi Avropada, postsovet respublikalarındakı siyasətçilərin çoxu da Paşinyan kimi düşünür”





”Paşinyanın Rusiyadan qaçmaq niyyəti bəllidir. Erməni baş nazir bunu çəkinmədən etiraf edir, Gürcüstan və Ukraynanın yolu ilə getməyə üstünlük verir. Ən pis halda Ermənistan Moldova kimi addım atmağa cəhd edəcək”. Bunu britaniyalı ekspert Aleksandr Merkuris deyib. Onun fikrincə, Paşinyan 90-cı illərdə ölkəni idarə edən və Qərblə daha yaxşı əlaqələrə inanan rus liberallarının səhvlərini təkrarlayır: ”O, Ermənistanı təhlükəli oyunlara sürükləyir. Təəssüf ki, Şərqi və Mərkəzi Avropada, postsovet respublikalarındakı siyasətçilərin çoxu da Paşinyan kimi düşünür”.

### ”Oxşar hadisələr Ukraynada da baş verib, Moldovada, Gürcüstanda da eyni tendensiyanın şahidi olmuşuq”

Merkurisin sözlərinə görə, biz bunu Rusiyada 90-cı illərdə ölkəyə nəzarət edən liberalların dövründə görmüşük: ”Oxşar hadisələr Ukraynada da baş verib, Moldovada, Gürcüstanda da eyni tendensiyanın şahidi olmuşuq. Ermənistanda elə insanlar var ki, köhnə münasibətləri kəsmək, müttəfiqindən üz döndərmək və Qərbə inteqrasiyanın çıxış yolu olduğunu düşünürlər. Amma bu, onlara ciddi problem yaşadacaq. Ölkənin bu istiqamətə yönələcəyinin tərəfdarı olanlar üçün nəticə maraqlı deyil”.

### ”Ermənilər hesab edirlər ki, Qərb onlara hər şeyi ”qızıl nimçə”də təqdim edəcək”

Britaniyalı politoloq Ermənistanın mövcud siyasətini tənqid edib və Qərb siyasətinin köklü maraqlarını açıqlayıb. Onun qənaətincə, son anda Qərb İrəvanı Moskva ilə üz-üzə qoyub kənara da çəkilə bilər. ”Ermənilər hesab edirlər ki, Qərb onlara hər şeyi ”qızıl nimçə”də təqdim edəcək. Ölkənin milli mənafeyini maddi maraqları üçün xərcləməyə çalışan insanlar təəssüf ki, hər yerdə var. Onlar başa düşməlidir ki, Qərb həmişə xoşbəxtlik vəd etsə də, onu hər kəsə vermir”, - deyə britaniyalı siyasi təhlilçi aşkar etirafını səsləndirib.

***Afət Tahirqızı***

# Təlim-tərbiyə işində valideyn-məktəb münasibətləri

Azərbaycan dövlət müstəqilliyini əldə etdiyi ilk gündən gələcəyimiz olan gənc nəslin təlim-tərbiyəsi işi hər zaman dövlət siyasətinin prioritet məsələlərindən olub. Xüsusilə son 15-20 ildə təhsil sahəsinə diqqətin daha da artırıldığının şahidi oluruq. Hər il yüzlərlə yeni məktəblərin tikilməsi və yarasız binalarda yerləşən məktəblərin əsaslı təmir edilməsi, məktəblərin maddi-texniki bazasının ilbəil möhkəmləndirilməsi, gənc nəslin sağlam ruhda böyüməsi üçün paytaxtda və regionlarda saysız-hesabsız dövlət tədbirlərinin keçirilməsi, təlim-tərbiyə sahəsində çalışan müəllimlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə görülən işlər, pedaqoji işçilərin əmək haqlarının hər il artırılması, xüsusilə gənc müəllimlərin seçilib məktəblərə təyin edilməsi işindəki şəffaf, qərəzsiz yeni metodların tətbiqi, daha savadlı, bacarıqlı müəllimlərə xüsusi imtiyazların tətbiq edilməsi və digər məsələlər bunu deməyə əsas verir.

Bununla belə, razılaşmalıyıq ki, dövlətin həyata keçirdiyi bu və digər tədbirlərlə yanaşı təhsildə o zaman istənilən nəticə əldə oluna bilər ki, bu sahəyə mənsubiyyətindən, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq hər bir vətəndaş ciddi məsuliyyət dağıdığını anlasın və üzərinə düşən vəzifəni layiqincə yerinə yetirsin. Çünki gələcəyimiz olan yeni nəslin sağlam ruhda, dövlətinə və xalqına bağlı vətəndaş kimi formalaşmasında təkcə məktəbin, müəllimlərin deyil, hər kəsin bilavasitə iştirakı vacibdir. Unudulmamalıdır ki, məktəb şagirdlərə bilik, savad təlim etməklə yanaşı, həm də onların məsuliyyətli vətəndaş kimi böyüməl
ərini təmin etməli olan müqəddəs ocaqdır. Lakin hərtərəfli inkişaf edən yeni nəslin formalaşması təkcə məktəbdən və müəllimlərdən asılı deyil. Ailə, ictimai mühit, televiziya, radio, internet portalları və digər amillər tərbiyə işi ilə uzlaşmayanda bu, gənc nəslin yetginləşməsi prosesinə mənfi təsir göstərir.

Bu baxımdan müasir zamanda elmin, texnikanın inkişafı ilə gənclərin hər yerdən, hər formada və hər məzmunda məlumatlar əldə etmək imkanları olduğunu nəzərə alaraq məktəblə cəmiyyət, xüsusilə ailə arasında daimi iş birliyi mühüm və qaçılmaz amil kimi nəzərə alınmalıdır. Odur ki, hər bir məktəbin kollektivi bu mühüm amili daim diqqət mərkəzində saxlamalı və ailə ilə, valideynlərlə daim ünsiyyətdə olmalıdır.

Azərbaycan respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və ordumuzun şücaəti sayəsində yüz illərdir xalqın həsrət qaldığı tarixi qələbəni əldə edən bir xalqın gənc nəslinin nə qədər vətənpərvər ruhda olduğunu deməyə ehtiyac yoxdur. Cənab Prezidentin də dediyi kimi, bizə tarixi qələbələr bəxş edən indiki gənclik məhz son uyirmi ildə ölkəmizdə gənc nəslin təlim-tərbiyəsinə dövlət qayğısından ruhlanan pedaqoji kollektivlərin əməyinin nəticəsi hesab edilməlidir. Bu nöqteyi-nəzərdən yanaşsaq ölkəmizdə gənc nəslin təlim-tərbiyəsi işinin yüksək sürətlə inkişaf etdiyini demək olar. Lakin inkişafla yanaşı işimizdə olan çatışmazlıqları, bəzi hallarda səhlənkar münasibətləri görməzdən gəlməməli, onların vaxtında aşkar edib aradan qaldırmağa çalışmalıyıq. Təhsil sahəsində uzun müddət çalışan bir pe-



daqoq kimi hesab edirəm ki, hələ də təhsilimizin əsas və narahatedici başlıca problemi ailə-məktəb münasibətlərinin lazımi səviyyədə qurulmamasıdır.

Qəribədir, valideyn həm məktəbdən, müəllimdən keyfiyyətli tədris, övladlarının bilik və bacarıqlarını inkişaf etdirmək kimi təbii istəklərini ortaya qoyurlar, həm də övladlarının ”hazırlıq kursları”na getmələrini əsas gətirib müxtəlif yollarla dərslərdən, təlim prosesindən yayındırmağa çalışırlar. Əlavə kursların, repreditor məşğələlərinin əleyhinə deyiləm. Lakin belə kurslar, məşğələlər şagirdlərin proqram üzrə təlim prosesinə mane olmamalıdır. Unutmalı deyilik ki, məktəb uşaqlara təkcə savad, elmi biliklər vermir, həm də onları cəmiyyətin layiqli vətəndaşı kimi tərbiyə etməyə çalışır. Layiqli vətəndaşlar isə fərdi təlimdə deyil, kollektivlə, cəmiyyətlə birgə formalaşmalıdır. Dərslərdən yayındırmaqla övladlarını ancaq konkret fənlər üzrə savadlanmağa yönləndirən valideyn anlamalıdır ki, o, bununla övladının hərtərəfli inkişaf prosesinə ciddi əngəl törətmiş olur və nəticədə, el arasında məşhur kəlamda deyildiyi kimi, oxuyub alim olsa da, adam (yəni cəmiyyətin layiqli üzvü, yetkin vətəndaş) olması sual doğurur.

Bir daha deyirəm, mən repreditor fəaliyyətinin əleyhinə deyiləm. Əksinə, şagirdlərin təlim prosesində öyrəndikləri biliyin təkrar-təkrar öyrənilməsi, uşağın gələcək üçün müəyyənləşdirdiyi sahə üzrə ixtisaslaşmış fənləri daha dərindən mənimsəməsi ümumi işin xeyrinədir və bundan narahat olmağa da hər hansı əsas yoxdur. Lakin əlavə məşğələlər proqram üzrə keçirilən dərslərdən, yəni məktəblərdəki gündəlik tədris prosesindən sonra, şagirdlərə müəyyən istirahət verməklə həyata keçirilsə daha effektli olar. Gizli deyil ki, ümumtəhsil məktəblərinin yuxarı siniflərində, xüsusilə X və XI siniflərdə valideynlər uşaqlarının məktəbə deyil, yalnız repreditor yanına getmələrinə çalışırlar ki, bu da, yuxarıda dediyimiz kimi, gənclərin hərtərəfli inkişafına ciddi mənfi təsir göstərir.

Əlbəttə, valideyn və məktəb münasibətlərində qeyd etdiyimiz qüsur yeganə deyil. Hələ də məktəbi, müəllimi yerli-yersiz nüfuzdan salmağa çalışmaq, müəllimin verdiyi tapşırığı bir kənara qoyub atanın, ananın tapşırığına əməl etməyi tələb etmək, müəllimin verdiyi summativ qiymətləndirmədən narazı qalıb, onu övladının yanında qeyri-etik ifadələrlə gözdən düşürmək və sair bu kimi faktlar mövcuddur və nə yazıq ki, bütün bunlar da dolayısı ilə yenə gənc nəslin təlim-tərbiyəsinə mənfi təsir göstərir. Lakin, uzun illər təlim-tərbiyə sahəsində çalışmış bir müəllim olaraq bu gün valideyn-məktəb münasibətlərində ən narahatedici məqam kimi məhz yuxarı siniflərdə şagirdlərin məktəbdən, təlim-tərbiyə prosesindən yayındırılması və fərdi hazırlığa üstünlük verilməsidir ki, fikrimcə bu fakt hər kəsi, hər pedaqoji fəaliyyətlə məşğul olan məktəb kollektivlərini, həm də valideynləri ciddi narahat etməlidir. Necə deyərlər, çalışaq ki, gələcəyimiz olan yeni nəsil həm alim, həm də ”adam”, yəni cəmiyyət üçün layiqli vətəndaş kimi yetişsin.

***Elmira Novruzova.***
***Bakı şəhəri Xətai rayonu 265 saylı Tam Orta Məktəbin müəllimi***

# Erməni vandalizmi: Tarixi-mədəni irsimizə qəsd

## İLHAM ƏLİYEV: "Bu, yadplanetlilərin əməli deyil. Bunu bizim torpağı işğal edən qonşularımız törədiblər, onlar 1 milyon azərbaycanlını evsiz-eşiksiz qoyub, 67 məsciddən 65-ni dağıdıb, murdarlayıblar"

Bu gün Azərbaycan dünyada ən böyük ədalətsizliklə üzləşmiş ölkələrdən biri idi. Tarixə nəzər yetirsək müxtəlif dövrlərdə ermənilərin ölkəmizə qarşı ərazi iddialarının şahidi olmuş olarıq. Xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti Azərbaycan tarixinin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu mərhələlərini təşkil edir. 30 ilə yaxın bir müddətdə Ermənistan tərəfindən davam etmiş işğalçılıq siyasəti nəticəsində bir milyon vətəndaşımız öz doğma yurd yuvalarından məhrum olmuş, mədəni və dini abidələrimiz dağıdılmışdır. Bununla dayanmayan düşmən dəfələrlə atəşkəsi pozaraq ölkəmizə qarşı hücum əməliyyatları həyata keçirmiş və qarşısı dərhal Silahlı Qüvvələrimiz tərəfindən alınmışdır. 2020-ci ilin sentyabr ayının 27-də növbəti belə hücuma qarşı ölkəmizin başlamış olduğu haqq savaşı Azərbaycanın ədaləti bərpa etmək gücündə olduğunu bütün dünyaya sübut etdi. 44 gün davam edən Vətən müharibəsində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ”Dəmir yumruq” siyasəti ilə Azərbaycan Ordusu düşməni məhv edərək tarixi ədaləti bərpa etdi. Ermənistan silahlı qüvvələrinin 30 ilə yaxın müddətdə işğal altında saxladığı Qarabağ və onun ətrafındakı rayonlar şanlı Azərbaycan Ordusu tərəfindən qarış-qarış yağılardan təmizləndikcə xalqımıza məxsus tarix və mədəniyyət abidələrinin vandalizmə məruz qaldığı, yerləyeksan edildiyi aşkarlandı. Müharibədən sonra işğaldan azad olunmuş ərazilərimizdə səfərdə olan xarici media əməkdaşları, beynəlxalq təşkilatların nümayəndələri bir daha erməni vandalizminin canlı şahidi oldular. Neçə illər düşmən işğalında olmuş doğma Qarabağımız bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin güclü iradəsi və qəhrəman ordumuzun şücaəti nəticəsində işğaldan azad olunub və özünün çiçəklənmə mərhləsini yaşayır. İşğaldan azad edilmiş bu diyarda bərpa və yenidən qurma işləri istiqamətində mühüm işlər görülür, müvafiq addımlar atılır, intensiv fəaliyyət həyata keçirilir.

### ERMƏNİSTAN 30 İLƏ YAXIN AZƏRBAYCAN TORPAQLARINI İŞĞAL ALTINDA SAXLAYIB, LAKİN ONA QARŞI HEÇ BİR SANKSİYALAR TƏTBİQ EDİLMİRDİ

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, 30 il ərzində işğal edilmiş ərazilərdə bizim tarixi və dini irsimiz erməni işğalçıları tərəfindən yer üzündən silinib. Ancaq 2020-ci il noyabrın 10-da üçtərəfli imzalanan bəyanatla Azərbaycan işğala son qoyaraq beynəlxalq ədaləti bərpa edib və indi azad edilmiş ərazilərə səfər edən hər kəs azərbaycanlıların dini-mədəni irsinə qarşı törədilmiş vandalizmi öz gözləri ilə görə bilir.

### AZƏRBAYCAN DÜNYADA ƏN BÖYÜK ƏDALƏTSİZLİKLƏ ÜZLƏŞMİŞ ÖLKƏLƏRDƏNDİR

Azərbaycan dünyada ən böyük ədalətsizliklə üzləşmiş ölkələrdən idi. Azərbaycan Prezidenti İlham Əliyev ”Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması” mövzusunda plenar iclasda çıxışında söylədiyi fikri bir daha vurğulamaq yerinə düşər: ”Bu, yadplanetlilərin əməli deyil. Bunu bizim torpağı işğal edən qonşularımız törədiblər, onlar 1 milyon azərbaycanlını evsiz-eşiksiz qoyub, 67 məsciddən 65-ni dağıdıb, murdarlayıblar. İndi biz onları artıq oradan qovandan sonra onlar ədalətli olmağa çağırırlar. Onlar, - bizim ərazilərimizi 30 il ərzində işğal edənlər, - bizi işğalçılıqda təqsirləndirirlər”.

”Biz Qarabağ münaqişəsini döyüş meydanında həll etməsəydik, onda bu sülh danışıqları daha 28 il davam edəcəkdi”,-deyən Azərbaycan Prezidenti İlham Əliyev onu da söyləyib ki, biz 28 il ərzində sülh danışıqları apardıq: ”Bizim təcrübəmizə əsasən sizə deyə bilərəm ki, bəzən sülh danışıqları çox uzun sürür. Biz 28 il ərzində sülh danışıqları apardıq. Siz bunu təsəvvür edə bilirsiniz? 1992-ci ildən 2020-ci ilədək. Biz Qarabağ münaqişəsini döyüş meydanında həll etməsəydik, onda bu sülh danışıqları daha 28 il davam edəcəkdi”.



Onu da vurğulayaq ki, Prezident İlham Əliyev qələbədən sonra mütəmadi olaraq işğaldan azad olunmuş rayonlarımıza səfər etdi və bu səfər zamanı bir daha diqqəti ermənilər tərəfindən məscidlərimizin dağıdılmasına yönəltdi: ”Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb”,- deyən Prezident İlham Əliyev İlham Əliyev bunun bütün müsəlman aləminə, islam dininə qarşı cinayət olduğunu bildirib. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi abidələrin vəziyyəti göstərir ki, ermənilər 1954-cü ildə qəbul edilmiş ”Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” Haaqa Konvensiyasının tələblərini kobud şəkildə pozublar. 30 ilə yaxın işğal dövründə Qarabağda islam mədəniyyətinə aid olan bütün məscidlər, abidələr dağıdılıb. Lakin dağıdılan yalnız islam mədəniyyətinə aid abidələr deyil. Maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağda Azərbaycan xalqına məxsus bütün tarixi abidələr də vandallığa məruz qalıb, muzeylər talan edilib, milli eksponatlarımız Ermənistana daşınıb.İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlərlə istifadə edilərək qəsdən dağıdılıb. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib.

### ERMƏNİLƏR DAHİ ŞƏXSİYYƏTLƏRİMİZİN BÜSTLƏRİNİ TƏHQİR EDƏNDƏN SONRA ONLARI ƏRİDİB SATMAQ, PUL ƏLDƏ ETMƏK ÜÇÜN ERMƏNİSTANA APARMIŞDILAR

Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Dövlətimizin başçısının bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub.

”Bu gün Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin - Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirmişəm. Bu yerdə Şuşa Mədəniyyət Mərkəzi, Mədəniyyət Evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu. Mənfur düşmən Şuşa Mədəniyyət Evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini güllləbaran edib. Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açmışdır, 1992-ci ilin yay aylarında. Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və ulu öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi”,-deyən dövlət başçısı bildirib ki, bu büstlər artıq öz yerlərindədir.

”Dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Onların ruhu şaddır”,-deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, artıq onlar doğma Vətənə qayıdıblar: ”Biz qaytarmışıq onları, düşməni qova-qova, düşməni məhv edərək, torpaqlarımızdan rədd edərək, Şuşanı geri alaraq, azad edərək qaytarmışıq. Burada duracaq, Şuşaya gələn hər bir insan yaxından görəcək erməni vəhşiliyini. Tarixi ədalət bərpa olunur. Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!”.

Ancaq təəssüf doğuran odur ki...

### DÜNYA ERMƏNİ VANDALİZMİNƏ GÖZ YUMMAQDA DAVAM EDİR

Erməni terrorçuları tərəfindən 30 ilə yaxın işğalda qalan ərazilərimizdə 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri qalmışdı. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı idi.

Xarici İşlər Nazirliyinin hazırladığı ”Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi” və ”Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması” adlı hesabatlar hazırlanaraq UNESCO başda olmaqla, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim edilib. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər daha bir əxlaqsızlıq nümayiş etdirərək, Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz iyrənc simalarını göstəriblər.

Həmçinin, bu gün İrəvan şəhərində olan Azərbaycan milli-mədəni, tarixi irsinin sonuncu qalığı Təpəbaşı məhəlləsinin də taleyi acınacaqlıdır. Belə ki, Təpəbaşı hissəsinin tarixi, şəhərdə yüz il əvvəl başlanmış və hələ də davam edən Azərbaycan irsinin sistemli dağıdılması prosesi həyata keçirilir. Artıq Təpəbaşı məhəlləsinin son qalıqlarının da sökülərək, məhəllənin tamamilə məhv edilməsi təhlükəsi barədə məlumatlar əldə olunub. Qeyd edək ki, Təpəbaşı qədim İrəvan şəhərinin tarixi məhəllələrindən biri olub, hazırkı İrəvan şəhərinin də tarixi nüvəsini təşkil edir. Və bu gün belə bir abidənin - Təpəbaşının məhv edilməsinin qarşısının alınması da dünya ictimaiyyətinin göz yumması yolverilməzdir. Xüsusi ilə UNESCO tərəfindən etinasızlıq göstərilməməlidir. Çünki bu, dünya mədəni irsinin bir hissəsidir.

### DÖVLƏTİMİZ ERMƏNİ VANDALİZMİNƏ, BARBARLIĞINA ŞAHİD OLMUŞ QARABAĞI CƏNNƏTƏ ÇEVİRƏCƏK

Artıq bu gün dövlətimiz erməni vandalizminə, barbarlığına şahid olmuş Qarabağı cənnətə çevirəcək və Prezident İlham Əliyevin iradəsi və qətiyyəti sayəsində işğaldan azad olunmuş ərazilərdə quruculuq, bərpa işləri aparılır. Bir sözlə, dünya birliyi unutmamalıdır ki, talan olunmuş və məhv edilmiş mədəni-tarixi abidələr təkcə Azərbaycanın yox, həm də dünya sivilizasiyasının çox dəyərli mədəniyyət nümunələridir. Ermənistan dağıtdığı bütün tarixi abidələrə, mədəniyyət müəssisələrinə görə məsuliyyət daşımalı və təzminat ödəməlidir. Bunun üçün Ermənistana qarşı beynəlxalq təzyiq gücləndirilməlidir.

Beləliklə, beynəlxalq platformada Azərbaycan erməni vandallığını və erməni iddialarının saxta olduğunu dünyaya sübut edəcək. Və Ermənistan beynəlxalq təsisatların üzvü olan bir dövlət olaraq, Azərbaycanın dini və mədəni irsinə qarşı işğal olunmuş ərazilərdə törədilmiş vandalizm aktlarına görə cavabdehdir. Unutmayaq, Ermənistan Azərbaycanın işğal etdiyi ərazilərdə yol verdiyi vandallığa görə mütləq cavab verəcəkdir.

**_RƏFİQƏ KAMALQIZI_**

**Dünyaya uşaq gəlir, həyatımızı bəzəyir. Evlərimizə sevinc, təntənə bəxş edir. Nəslimizin artmasına, yaşamasına xidmət edir bu balaca varlıqların dünyaya gəlişi. Sevinirik, şadyanalıq edirik. Onun ilk qidası süddür-ana südü. Minlərlə iri-li-xırdalı vitaminləri özündə birləşdirən, uşağın sağlam böyüməsində, dincliyində, sakitliyində, yuxusunda, bir sözlə, gündəlik həyat tərzində, gələcəyində böyük əhəmiyyətə malik olan ana südü. Dəfələrlə danışmışıq bu barədə. Lakin görünür odur ki, hələ də azdır. Uşağına süd verən anaların sayı gündən-genə azalır. Belə isə biz heç susmayaq...**




# Körpələrinizdən ana südünü əsirgəməyin







## Kolostrum körpənin ilk peyvəndidir

Amerika Pediatriya Akademiyasının tövsiyəsinə görə, körpə ilk 6 ay ərzində yalnız ana südü ilə qidalandırılmalı və bu, ən azı 1 yaşa qədər davam etdirməlidir. Ümumdünya Səhiyyə Təşkilatı da körpələri ana südü ilə qidalandırmağa doğuşdan bir saat sonra başlamağı, 2 yaş və ya daha uzun müddətə davam etdirməyi məsləhət görür.

Ana südü yenidoğulmuşlar və körpələr üçün optimal qidalanmanı təmin edir. O, lazımi miqdarda qida maddələrinə malikdir və asanlıqla həzm olunur.

Araşdırma apararkən mütəxəssis Cəmilə Hacızadənin qarşıma çıxan elmi məqaləsində oxuyuram ki, ana südü ifrazolunma müddətinə və tərkibinə görə kolostrum, keçid südü və yetkin süddən ibarətdir. Kolostrum doğuşdan sonra ilk 5 gün ərzində ifraz olunan, qatı və sarımtıl rəngli süddür. Tərkibində az yağ və laktoza var. O, xüsusən infeksiya əleyhinə xüsusiyyətə malik zülallarla zəngindir. Kolostrum immunoqlobulinlərlə zəngin olduğundan yeni doğulmuş körpəni xarici mühitin patogen amillərindən, yəni mikroorqanizmlərdən qoruyur. Həmin xüsusiyyətinə görə kolostrum körpənin ilk peyvəndi olaraq qəbul edilir. Həmçinin yeni doğulmuş uşağın formalaşmamış həzm sisteminin inkişafına kömək edir. İlk bir neçə gündən sonra körpənin mədəsi böyüdükcə ananın orqanizmi daha çox süd istehsal etməyə başlayır.

Ana südü körpələr üçün ideal qidalanmanı təmin edir. Ana südü ilə qidalanma körpənin bir sıra xəstəliklərə tutulma riskini azalda bilər, onun çəkisini sağlam şəkildə artırır. Ana südü mühüm antitellər ehtiva edir, uşaqların zehni inkişafında böyük əhəmiyyətə malikdir.

## Körpəyə iki il ana südü verilməlidir

Müqəddəs kitabımız olan "Quran" surələrinin 11 ayəsində, xüsusən, Bəqərə surəsində açıq şəkildə deyilir: "Körpələrinizdən ana südünü əsirgəməyin. Doğulandan sonra tam iki il ona süd verin".

Ana südü Yaradanın insana, anaya verdiyi ən gözəl təbii nemət və körpəyə verilən ən təhlükəsiz və dəyərli qidadır. Bir vaxtlar tibb ana südünün yalnız körpənin 4, sonralar 6 ayına qədər verilməsini əsas sayırdısa, dünya təbabəti bu gün bu vaxtın iki ilə qədər uzadılmasını elmi əsaslarla tövsiyə edir. Belə isə hər bir ananın vəzifəsidir ki, dünyaya gətirdiyi övladını öz südü ilə qidalandırsın. Ana südünün körpəyə nə qədər vacib olması əsrlər boyu sübut olunmuş və hər birimizin təcrübəsində özünü doğrultmuşdur.

Təəssüf ki, bu gün tez-tez anaların körpələrinə süd verməkdən imtina etmələri kimi hadisələrlə qarşılaşırıq. Çox ana südünün olmadığını bəhanə gətirərək əslində bədən formasının pozulmaması üçün övladına südünü çox görür. Lakin əvvəllər belə deyildi. Ana-nənələrimiz vardı ki, hələ gəlini-qızı yenicə hamilə olan vaxtdan ta doğuşa qədər evlərdə maarifləmə aparır, ana südünün faydalarından danışır, ana olacaq qadını elə yetişdirirdi ki, o, birinci vəzifəsi kimi körpəsinə ana südünü verməli olduğunu dərk edirdi. Beləliklə də uşaq dünyaya gələndən sonra ona aldığı tövsiyələrlə elə yanaşırdı ki, həm uşaq normal əmməyi öyrənirdi, həm də südü davamlı gəlirdi.

Lakin müasir dövrümüzdə necədir? Hazırda anaların süd verməkdən imtina etməsində bütün cəmiyyət kimi, həm də onların böyüklərinin günahı var. Tanıdığım bir qadının qızı heç bir il deyil ki, ikinci dəfə ana olub. Anası ona tövsiyə edirmiş ki, nə badə körpəyə süd verəsən, "fiquran" korlanar. Bu söhbəti eşidəndə, günlərlə ona məzəmmət etdim. Çünki məsləhət verən ana müəllim idi. Bir müəllimin bu təfəkkürə malik olmasını əsla həzm edə bilmirdim. Lakin gənc ana qayınanasının tövsiyəsi ilə körpəsini ancaq ana südü ilə qidalandırmağa başladı. Hazırda uşağın bir yaşının tamam olmasına bəlkə də bir aydan az vaxt qalır. Hələ də o körpə ana südündən başqa qıda dadmayıb. Çox sağlam bir uşaqdır. Bax, bu cür onlarla nümunələr çəkmək olar. Düşünəndə ki, gənc ananın heç bir təcrübəsi yoxdur, biz böyüklər ona hansı tövsiyə və məsləhəti versək, onunla razılaşacaq, bəs belə isə nə üçün faydalı məsləhətlər verməyək?

Düzdür, həmişə yazılarımda vurğulamışam ki, internet həyatımıza daxil olduolmadı, onu alt-üst etdi. Gənc analar internet vasitəsilə süd verməklə fiquralarının pozulacağını öyrənirlər. Bunu analıq hissindən kənar, övladının sağlamlığını gözəl görünməyə qurban verən ana deməzdim, qadınlardan öyrənirlər. Lakin analarımız arasında buna məna verməyəni də var, beynində saxlayıb ana olan kimi həyata keçirəni də var. Odur ki, Azərbaycanda körpəyə süd verməmək, südü qəsdən qurutmaq kimi hallar çoxalıb. Elə bu səbəbdən də ana olan qadınlarımızın az faizi, yəni 50 faizi körpəsini ana südü ilə qidalandırır. Lakin nəzərə alsaq ki, ana südü hazır qidadır, bəzən gecə yorğunluğu bəhanə gətirib körpəsini qidalandırmaq istəməyən analara bir sual vermək istəyirəm: gecə uşaq oyanıb ağlayanda onu qucağına alıb hazır ana südü ilə onu qidalandırmaq rahat və yaxşıdır, yoxsa qalxıb mətbəxə gedib, su isidib, süni yemək hazırlayıb gətirib uşağı qidalandırmaq yaxşıdır? Ana gələnədək də uşağın ağlamaqdan yuxusu pozulur. Yesə, qarnı doysa da, nə özü yatır, nə də ana. Hansı sənə sərf edər? Həqiqətən, ağıllı başla, məntiqlə düşünəndə hazır yeməyi qoyub insan özünə nə üçün bu qədər zülm edir, anlamıram. Həm də süni yeməklərin tərkibini, övladımızın sağlamlığı üçün zərərli olduğunu bilə-bilə...

Unutmayaq ki, yeni doğulmuş körpənin heç olmazsa, 6 aya qədər əmizdirilməsi ilə hər il 1000 uşağın ölümünün qarşısı alına bilər.

## Yarı uşaq, yarı ana

Körpənin ana südü ilə əmizdirilməsi 50 faiz uşaq üçün əhəmiyyətlidirsə, 50 faiz də ana üçün faydalıdır. Belə ki, ana südü ilə qidalandırma ilkin olaraq körpəni qulaq infeksiyalarından, ishal, pnevmoniya və digər xəstəliklərdən qoruyur. Döş xərçəngi, yumurtalıq xərçəngi və diabet riskini azaltmaqla həm də analar üçün faydalı olur?

Uzun müddət ana südü ilə qidalandırma uşağı orta qulaq, boğaz və sinus infeksiyalarından, həmçinin çoxsaylı tənəffüs və mədə-bağırsaq xəstəliklərindən qoruyur. Hətta 6 ay ərzində yalnız ana südü ilə qidalanan körpələrdə ciddi soyuqdəyməyə məruz qalma, eləcə də qulaq və boğaz infeksiyalarına tutulma, ani körpə ölümü sindromu, astma, atopik dermatit və ekzema, diabet, leykozun yaranması riski daha az olur.

Ana südü ilə qidalanma sağlam çəki artımına kömək edir və piylənmənin qarşısını alır. Araşdırmalar göstərir ki, 4 aydan çox ana südü ilə qidalanma körpənin artıq çəki və piylənmə riskini əhəmiyyətli dərəcədə azaldır. Bu, müxtəlif bağırsaq bakteriyalarının inkişafı ilə əlaqədar ola bilər. Ana südü ilə qidalanan körpələrdə çox miqdarda faydalı bağırsaq bakteriyası var ki, bu da yağların depolanmasına təsir edir. Ana südü ilə qidalandırılan körpələrin orqanizmində süni qida ilə qidalanan körpələrə nisbətən daha çox leptin var. Leptin iştahanı və yağ yığımını tənzimləyən əsas hormondur.

Ana südü uşaqların zehni inkişafına təsir edir. Araşdırmalar nəticəsində müəyyən olunub ki, ana südü ilə qidalanma körpələrin uzunmüddətli beyin inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Həmçinin ana südü ilə qidalanan körpələr daha yüksək intellektə malik olur və böyüdükcə öyrənmə çətinliyinə, eləcə də davranış problemlərinə daha az məruz qalırlar.

Dünyada hər 10-cu qadın süd vəzisinin xərçəngi və uşaqlıq boyunun xərçəngindən əziyyət çəkir və bu, dünyada qadın ölümünə səbəb olan xəstəliklərin ilk sıralarındadır. Məhz Azərbaycan qadınlarında da bu xəstəliyin olması və yayılması ürəkaçan deyil. Dünya təcrübəsi göstərir ki, süd vəzisi xərçəngini ilkin mərhələdə aşkarlamaqla onun gələcək inkişafının qarşısını almaq mümkündür. Bu xəstəlik və ümumiyyətlə, cəmiyyət arasında belə xəstəliklərə qarşı maarifləndirmə işləri aparılmalıdır. Maarifləndrmənin əsas məqsədi odur ki, həmin xəstəliyin ilkin nəticələrini aşkar edən qadın həkim müayinəsindən keçir və xəstəlik erkən dövründə aşkarlandığı üçün müalicə olunur. Körpəsini ana südü ilə qidalanan qadınlarda bu xəstəliyin olma təhlükəsi digər süd verməyən qadınlara nisbətən azlıq təşkil edir. Odur ki, UNİSEF ana südü ilə əmizdirmənin təbliği ilə bağlı çox böyük işlər aparır. Bu təbliğatı evdə, iş yerində, xəstəxanalarda hər kəs gənc qadınlar üçün aparmalıdır ki, onlar özlərini hansı təhlükə ilə üz-üzə qoyduqlarını anlasınlar. Həm özlərini, həm də körpələrini xilas etsinlər. Beləliklə, ana südü ilə qidalandırma həm uşaq, həm də ana üçün faydalıdır. Yaxşı olar ki, gənc analar fiqura, görünüş məsələlərini bir kənara qoyub bu barədə düşünsünlər.

***Mətanət Məmmədova***

ANALİZ

# Jurnalist heç bir halda peşə fəaliyyətinə görə həbs edilə bilməz

## Cinayət törədən, qanunsuz əməllərdə iştirak edən şəxsin, o cümlədən jurnalistin məsuliyyətə cəlb edilməsi təbii haldır

**Azərbaycan mediasının şərəfli, qürurverici tarixi mövcuddur. Müxtəlif çətin, mürəkkəb yollar keçsə də, nəhayətdə formalaşaraq regionun ən inkişaf edən, qabaqcıl mediasına çevrilməyi bacarıb. Bu gün dövlətin dəstəyi hesabına ölkəmizdə özünəməxsus ənənələri olan müstəqil jurnalistika məktəbi mövcuddur.**

Təbii ki, müstəqil, azad medianın yaradılması və inkişaf etdirilməsi Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlı. Məhz Ümummilli Lider Heydər Əliyevin xüsusi diqqət və qayğısı sayəsində mətbuatımız inkişaf edərək bugünkü azad mediaya çevrildi. Hazırda Ulu Öndərin əsasını qoyduğu media siyasətini Onun layiqli davamçısı Prezident İlham Əliyev uğurla davam etdirir. Prezident İlham Əliyev KİV-lərin fəaliyyətinin genişlənməsinə və peşəkarlıq səviyyəsinin yüksəlməsinə hər cür dəstəyini göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı və MEDİA Agentliyinin yaradılması ölkəmizdə media sahəsində islahatların daha sürətlə aparılmasına və şaxələndirilməsinə yeni imkanlar yaradır. Təəssüflər olsun ki, dövlətin yaratdığı şərait və imkandan sui-istifadə hallarına yol verilir. Yazdığı təhqiredici yazıya, işlətdiyi böhtanlara görə məsuliyyətə cəlb edilməsində humanistliyə yol veriləcəyini anlayan bəzi jurnalistlər bu istiqamətdə sərhəd tanımırlar. Vaxtaşırı təhqirlərlə dolu yazılar yazır, internet TV-lərdə şər və böhtan xarakterli fikirlər yayırlar. Dəhşətlisi ondan ibarətdir ki, onları bəzən siyasi partiya funksionerləri istiqamətləndirirlər.

### Əli Kərimlinin dəstək verdiyi casus şəbəkəsinin meydanı daralır

Dəfələrlə sübuta yetirilib ki, AXCP sədri Əli Kərimlinin, Milli Şuranın rəhbəri Cəmil Həsənlinin və digərlərinin sifarişləri əsasında bəzi jurnalistlər, media orqanları, internet TV-lər dövlətin müsbət imicini ləkələmək üçün qarayaxma kampaniyası təşkil edirlər. Qanunlar sifarişlər əsasında fəaliyyət göstərənlərin başlarının üstünü kəsdirəndə sifarişçilər hərəkətə keçib, hay-küy qaldırırlar. Bəzən isə lüzumsuz və əsassız yerə nağılların uydurulması halları da olur. "Kanal-13" deyilən internet TV-nin rəhbəri Əziz Orucov polis bölməsinə dəvət edildiyi üçün AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Milli Şuranın üzvü Tofiq Yaqublu və digərləri sosial şəbəkələrdə əhəmiyyətsiz kampaniya təşkil ediblər. İddiaları, söylədikləri fikirlər isə əsassız və məntiqsizdir. Ən azı ona görə ki, asayişin qorunmasına, insanların təhlükəsizliyinin təmin olunmasında böyük əzmkarlıq göstərən Azərbaycan polisi kimisə heç bir səbəb olmadan polis bölməsinə dəvət etməz və ya saxlanmasını həyata keçirməz. Bu baxımdan, hay- küy qaldırmaq mənasızdır, Ə.Orucov polis bölməsində söhbətdən sonra sərbəst buraxılan da bilər. Azərbaycan demokratik prinsiplərə, insan hüquq və azadlıqlarının müdafiəsini ən ali məqsəd olaraq həyata keçirən dövlətdir. Jurnalist heç bir halda peşə fəaliyyətinə görə həbs edilə bilməz. Cinayət törədən, qanunsuz əməllərdə iştirak edən şəxsin, o cümlədən jurnalistin məsuliyyətə cəlb edilməsi təbii haldır. Lakin fakt ondan ibarətdir ki, elə jurnalistlər var ki, öz peşələrinə xəyanət edir, pul qarşılığında müəyyən şəbəkələrin sifarişlərini yerinə yetirirlər.

Hətta xarici maraqlı dairələrin sifarişləri əsasında fəaliyyətlərini quran juranlistlər də var. "Abzas Media" xəbər portalının rəhbəri Ülvi Həsənov, baş redaktor Sevinc Abbasovanın müxtəlif xarici fondların maraqlarının icraçıları rolunda çıxış etməklə jurnalist peşəsinə xəyanət etmələrini göstərmək olar.

### Təhlil yazısı, araşdırma məqaləsi olmayanı jurnalist adlandırmaq yanlışdır

Mövcud reallıqlara əsasən demək olar ki, "Abzas Media" xəbər portalını Azərbaycan cəmiyyətində ümumiyyətlə tanınmırlar, heç bir oxucuları yoxdur.

Lakin xarici fondlar bunun fərqinə varmadan, böyük məbləğdə maliyyə vəsaitlərini onlara ötürürlər. Sözügedən şəxslər haqqında yayılan əsaslı faktlar bəzi jurnalistlərin Azərbaycanda baş verənləri qara eynəkdə baxan fondlarla nəyin qarşılığında əməkdaşlıq etdikləri məlum olur. Artıq sözügedən şəxslər ifşa olunublar. Onlar haqqında külli miqdarda pul vəsaitlərinin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi və şübhəli maliyyə əməliyyatlarının aparılması faktı üzrə Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə başlanılmış cinayət işi üzrə barələrində həbs qətimkan tədbiri seçilib. "Abzas Media" xəbər portalının rəhbəri Ülvi Həsənovun, baş redaktor Sevinc Abbasovanın və layihə koordinatoru Məhəmməd Kekalovun həbs edilmələrindən sonra Azərbaycanın dağıdıcı müxalifəti və xarici fondların nümayəndələri hay-küy qaldırıb, əsassız açıqlamalar verirlər. Hətta Ə.Kərimli, T.Yaqublu, C.Həsənli və digərləri həbs edilənlərin jurnalist fəaliyyətlərinə görə həbs edildiyini iddia edirlər. Halbuki, həbs edilən şəxslərin jurnalistikaya heç bir aidiyyəti yoxdur. Media sahəsində bu şəxslərin hər hansı məqalə, araşdırma və təhlil yazı ilə çıxış etmələri faktları mövcud deyil. Sadəcə, "Abzas Media" xəbər portalı təqdim olunan tezislər əsasında təxribat xarakterli məlumatlar yayıblar. Qarşılığında qucaq-qucaq avro, dollar alıblar. İfşa edilən "jurnalist"lər haqqında məlumat isə həqiqətən də düşündürücüdür. Nədən bəzi xarici fondlar, təşkilatlar kisələrinin ağzını açıb, Azərbaycan daxilində pozucu yol tutmağa, təxribatlar törətməyə çalışanlara maliyyə vəsaitləri ayırırlar? ABŞ-ın "Beynəlxalq İnkişaf Agentliyi", "Milli Demokratiya Fondu" və digərləri "Abzas Media" xəbər portalının rəhbərliyinə "demokratik inkişafa dəstək vermək" adı altında böyük məbləğdə pullar ödəyiblər. Görün, Qafqazın bir ölkəsində "demokratiya carçısı" rolunda çıxış etmək üçün nə qədər qurum növbəyə dayanıb və bundan da Ülvi Həsənov və komandası maksimum dərəcədə istifadə ediblər.



### Saxta hesablarla böyük məbləğdə vəsaitlər əldə olunub

"Abzas Media" xəbər portalının rəhbərliyi "Signal" və "Protonmail" platformalarında hesablar yaradaraq, beynəlxalq təşkilatların kod adları "Aleks" və "Daisy" olan nümayəndələri ilə qrant layihələri və pul vəsaitləri əldə etmək mövzusunda çoxsaylı yazışmalar aparıb, xarici səfərlərində isə onlarla görüşüblər.

Görünən odur ki, səfərlər və görüşlər bizim "qəhrəmanlar" üçün kifayət qədər uğurlu olub. Belə səfərlər zamanı dövlət qeydiyyatına alınmadan bağlanılmış qrant müqavilələri çərçivəsində avro və ABŞ dolları valyutalarında ayrılan qanunsuz pul vəsaitləri Gürcüstanda fəaliyyət göstərən "TBC Bank" və "Bank of Georgia" banklarında Ülvi Həsənovun və Məhəmməd Kekalovun adlarına açılmış bank hesablarına köçürülüb. Müxtəlif görüşlərdə maliyyə fırıldaqçılıqlarının sirlərinə yiyələnən Ülvi və Məhəmməd həmin vəsaitləri həm özləri, həm də yaxın qohumları vasitəsilə xarici ölkələrdəki bankomatlardan məsuliyyət yaratmayan məbləğlərdə hissə-hissə nağdlaşdırıb ölkəyə gətiriblər. Bəzi layihələr üzrə vəsaitlər isə Londonda adsız bank kartlarına yüklənərək dəstə üzvlərinə təqdim olunub. Bu metodla pullar cinayətkar dəstə, onların ailə üzvləri və digər yaxın qohumları vasitəsilə bir sıra bankların hərəkət intensivliyi az olan küçələrdəki bankomatlardan kiçik məbləğlərlə nağd şəkildə çıxarılıb.

Sual olunur, "Abzas Media"çılar min cür yolla nağdlaşdırdıqları vəsaiti hansı xidmətlərinə görə alıblar? Bu suala cavab vermək üçün "azad söz xiridarlarının" 2020-2023-cü illərə aid aşkarlanmış sənədlərdə Ülvi Həsənov və yaxın ətrafına daxil olan şəxslər tərəfindən hansı layihəni həyata keçirdikləri və bunun müqabilində nə aldıqlarını görmək kifayətdir. Bütün Qərb sifarişlərini yerinə yetirənlərin həmisi rolunda çıxış edən USAİD-ə bağlı olan "DT Global" təşkilatından Ülvi Həsənov 98 600 avro və 30 000 ABŞ dolları alıb. Ümumilikdə Ü.Həsənov və onun şəbəkəsi 113 910 avro və 210 794 ABŞ dolları həcmində vəsait əldə ediblər.

### ABŞ və Qərbin qaranlıq dairələri Azərbaycanda geniş agentura şəbəkəsi qurublar

Bu vəsaitlərin məbləğinin dəqiqliklə göstərilməsinin səbəbi isə hər birinə dair ödəniş sənədlərinin nüsxələrinin olmasıdır. Həmin pulların müqabilində isə hazırlanan layihələrin adı onların məzmununu və niyyətini açıq şəkildə nümayiş etdirir. Bunlar: "Azərbaycan Respublikasının qoşulduğu Beynəlxalq Konvensiyalara əməl etməsinin monitorinqi", "Məhkəmə orqanları tərəfindən qəbul edilmiş qərarların araşdırılması", "Araşdırılmamış 100 cinayət", "Turizm və kənd təsərrüfatı sahələrində korrupsiyanın araşdırılması", "Media haqqında qanunla bağlı vəkillik fəaliyyətinə dəstək", "Media portalının müasir texniki vasitələrlə təchiz edilməsi" və sair oxşar başlıqlı mövzular. Bundan əlavə 210 468 ABŞ dolları və 77 815 avro məbləğdə ilkin layihələndirilmiş sənədlər aşkar edilib.

Həmin sənədlərdə iştirakçı və icraçı qismində yuxarıda adları çəkilən şəxslərlə yanaşı müxalif fəallar Toğrul Vəliyev, Hafiz Babalı, Şəmistan Həziyev, Hacı Zeynallı, Sahilə Aslanova, Minəxanım Əliyarlı, Rübabə Quliyeva, Elnarə Qasımova və Nərgiz Absalamovanın da adları keçir. Bütün bunlar onu bir daha təsdiq edir ki, ABŞ və Qərbin qaranlıq dairələri Azərbaycanda geniş agentura şəbəkəsi qurublar. Söz yox ki, agentura şəbəkəsində yalnız jurnalistlər, özlərini bloger kimi təqdim edənlər yer tutmurlar, onların arasında QHT-nümayəndələri, siyasi partiya rəhbərləri mövcuddur. Ə.Kərimlinin, C.Həsənlinin, T. Yaqublunun və digərlərinin hay-küy qaldırmaları torbada pişiyin olmasından xəbər verir. Digər tərəfdən C.Həsənli özü açıq şəkildə etiraf etmişdir ki, o hər ay Soros fondundan 200 ABŞ dolları alıb. Əminəm ki, hüquq-mühafizə orqanları etirafedici açıqlamlarla çıxış edənləri sorğu sual edəcəklər. Bu halda Ə.Kərimlinin, T.Yaqublunun və digərlərinin də gizlinləri aşkara çıxacaq. Bunlarla da sadə şəkildə onların məsuliyyətə cəlb edilmələri mümkün olacaq.

***İ.ƏLİYEV***



## FELYETON

### Toqquşanda nə olar ki...

***Deyirlər ki, xaricdə gediş sağ tərəflə, gəliş isə sol tərəflədir. Metroda, səkilərdə, yolda insanlar sağ ilə gedir, gələnlər isə solla gəlirlər. Maşınlar da yolda eynilə, gedənlər sağla, gələnlər sol tərəflə gəlir. Bunu eşidər-eşitməz, dərin bir fikrə getdim. Dedim, görəsən, bunu nə üçün belə edirlər?..***

Bu xarici ölkələr də qəribədir ey... Hər yerdə bir hoqqa çıxarırlar. Necə yəni sağla get, solla gəl? Ay qardaş bu metrodur, səkidir, yol-rizdir, sənin atanın həyəti, evi deyil ey, insan istəyər solla gedər, istəyər sağla. Bilmirsiniz nə edəsiniz ki, özünüzü dünyaya fərqli təqdim edəsiniz. Bir bu yaxınlarda beynəlxalq təşkilatların birinin dəstəyi ilə iş üçün Almaniyadan Bakıya bir qadın gəlmişdi. Buraları çox xoşlamışdı. Bir Bakı deyirdi, ağzından beşi də tökülürdü: Bakı necə gözəldir, necə cəlbedicidir, adam baxmaqla doymur. Bu qədər gözəllikmi olar? Bu qədər füsunkarlıqmı olar?

Ancaq bu xanım onu da deyirmiş ki, burada hər şeydən razıyam. Lakin bircə ondan qorxuram ki, küçədə kiminləsə toqquşaram. Zərbə alaram, yıxılaram, ayağım, qolum sınar. Bu səbəbdən də küçədə çox ehtiyatlı olmağa çalışıram.

Elə bu söhbəti eşidər-eşitməz, başladım deyinməyə: bunlara bax, bizim küçələri bəyənməməyə bax. Adam niyə küçədə, səkidə yıxılır ki? Yoldur da, hamı kütləvi şəkildə keçib-gedir. Tələsərkən ən son halda bir-birinə möhkəm çırpılıb toqquşacaqsan da, bundan başqa nə olandır ki? Toqquşanda nə olar ki, hamımız insanıq da. Meşədə ayı ilə, canavarla toqquşmursan ki, insanla toqquşursan da...

Hələ toqquşmamaqdan ötrü bir də durub sağ ilə getməli, sol ilə gəlməlisən? Biz, vallah, xarici-filanı bilmirəm, qaynayıb-qarışmışıq. Hər yerdə bir gedib, bir gəlirik. Həm insanlar, həm də maşınlar. Qoy bundan qorxan varsa, gedib öz ölkəsində işləsin, yaşasın. Bizdə belədir, həm də bunu əsla dəyişmək fikrimiz də yoxdur. Bunun nəyi pisdir ki? Ha istəyirik ki, mehriban olaq, bir qənbərqulu çıxır da.

Elə bu alman qızın dediyi sözləri düşünə-düşünə metroya gedirdim. Həm də açığını deyim, xeyli əsəbləşmişdim. Nə isə, getdim, eskalatordan enirdim ki, bir səs özümlə söhbətimdən məni ayırdı. Qulaq verirəm, metronun məlumat bürosundan elan edilir ki, gedərkən sağ tərəflə gedin, sol tərəfi keçid üçün boş saxlayın. Deyirəm, boo, birinci dəfədir, bu barədə eşidirəm metroda. Yoxsa tapşırıblar ki, siz də xaricdəki kimi edin. Başımıza xeyir, bu sağ və sol məsələsində də Avropaya inteqrasiya edirik?

***Mətanət Məmmədova***

# Dmitri Solonnikov: "Azərbaycan öz siyasətini ABŞ-ın yox, öz maraqlarına uyğun aparır"

## "ABŞ Ermənistan vasitəsilə Cənubi Qafqazda möhkəmlənməyə və yerini genişləndirməyə çalışır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

**Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov Vaşinqtonun Cənubi Qafqaz siyasəti haqqında "Moskva-Baku" portalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- ABŞ dövlət katibinin köməkçisinin bu yaxınlarda Bakıda Azərbaycanla bağlı səsləndirdiyi tiradadan sonra ABŞ dövlət katibi Azərbaycan prezidentinə zəng edib. Blinken həmin köməkçidən münasibətləri yaxşılaşdırmaq üçün Bakıyla danışmağı xahiş edib. Amma eyni zamanda Amerika dövlət katibi Ermənistanın baş nazirinə də zəng edib, onunla söhbətində yenidən Ermənistanın ərazi bütövlüyünü müdafiə edib. Bu vəziyyəti necə xarakterizə edə bilərsiniz?***

- Bu vəziyyətdə ABŞ istənilən halda öz maraqlarını irəli sürməkdə maraqlıdır, bu gün Ermənistan bunun üçün alətdir və bunu heç kim gizlətmir. ABŞ-ın müəyyən vasitələrinin köməyi ilə hakimiyyətə gətirilən Ermənistan rəhbərliyi ABŞ-ın Cənubi Qafqazda məqsədlərini təbliğ etmək üçün tapşırıqlar yerinə yetirir. Bundan sonra Vaşinqton Zaqafqaziyada digər dövlətlərlə münasibətlərini yumşaltmaq məsələsini qaldıracaq. Əsas tezis belə olacaq: "Əgər bizim sizə qarşı loyal davranmağımızı istəyirsinizsə, onda qamçı və kökə siyasəti olacaq". Bir tərəfdən sərt bəyanatlar və təhdidlər, digər tərəfdən: "gəlin sizinlə danışaq". ABŞ hegemonluğunu bərqərar etməyi mümkün və zəruri hesab etdiyi dünyanın hər yerində belə davranır. Və onlar dünyanın bütün hissələrinə münasibətdə belə düşünürlər.




Yeni bizim gördüyümüz Azərbaycanla münasibətləri nizamlamaq cəhdi deyil: biz Bakıya zəng edirik, İrəvana zəng edirik və bu, sadəcə olaraq öz maraqlarımızı təbliğ etməkdir. ABŞ heç kimlə münasibətlərini nizamlamır. Amerika üçün heç bir dövlətlə bərabər hüquqlu münasibətlər qurmaq məntiqi yoxdur. Birləşmiş Ştatlar öz iradəsini həyata keçirmək üçün başqalarına ehtiyac duyur. Dünyanın qalan hissəsini özlərinə uyğunlaşdırırlar. Avropa Birliyi kimi. Hökmran var, vassal var. Vassal mövqeyini qəbul etdiniz, bu o deməkdir ki, haradasa sizi qoruyacaqlar və haradasa "ağanın masasından yemək" təklif edəcəklər.

Azərbaycan bu vəziyyətdə özünü çox şərəfli aparır, subyektivliyini qoruyub saxlayır, xarici siyasətini ABŞ-ın maraqlarına uyğun deyil, ilk növbədə öz maraqlarına uyğun aparır. Bu gün Azərbaycan dünya siyasətinin son dərəcə mühüm mərkəzidir. Məsələn, bu gün Azərbaycan Qoşulmama Hərəkatının lideridir ki, bu da son dərəcə vacibdir. Çox ciddi xarici siyasət yeritmək üçün əlində olan rıçaqlardan istifadə edir. Ona görə də ABŞ Bakıya diqqət yetirir.

Vəziyyət mürəkkəbdir və burada hər bir ölkə özünü real imkanlara əsaslanaraq görür.Bəli, belə fikirlər var ki, ABŞ-ın Cənubi Qafqaz siyasətində hədəfləri Rusiya və İrandır. Amma mənim fikrimcə, Çinin də Zaqafqaziya və Mərkəzi Asiya ölkələrindən keçməli olan yeni "İpək Yolu" - "Bir kəmər, bir yol" layihəsinin həyata keçirilməsi ilə bağlı böyük marağı var.




ABŞ Cənubi Qafqazda baş verən hər şeyi öz nəzarəti altına almalıdır. Azərbaycan isə bu kəsişmələrin mərkəzindədir. Enerji amili də vacibdir, lakin məncə, transmodal dəhlizlərə münasibətdə ikinci dərəcəlidir. ABŞ indi Ermənistan vasitəsilə regiona daxil olmağı bacarıb və indi öz körpü başlığını genişləndirmək vəzifəsini qarşısına qoyur.

***- Azərbaycanın bu vəziyyətdə davranış ssenarisi necə olacaq sizcə?***

- Çox güman ki, Azərbaycan öz maraqlarını müdafiə etmək və ABŞ-ın xarici siyasət konturuna inteqrasiya etməmək üçün xətt inkişaf etdirməkdə davam edəcək. Çox güman ki, Bakı ilə Vaşinqton arasında ciddi eskalasiya olacaq. Azərbaycanla ABŞ arasında gərginlik artacaq, lakin sonra hər şey daha böyük geosiyasi ssenarilərdən asılı olacaq. Xüsusilə, gələn il ABŞ-da keçiriləcək prezident seçkilərindən sonra. Biz çox yaxşı başa düşürük ki, ABŞ seçiciləri üçün Cənubi Qafqaz planetin birinci prioritet nöqtəsi olmaqdan uzaqdır. Ermənistanla oynamaq həm demokratlar, həm də respublikaçılar arasında müşahidə olunacaq. Seçkilər keçiriləcək və çox güman ki, geosiyasi vəziyyət dəyişəcək.

***- ABŞ son zamanlar tez-tez Rusiya ilə Azərbaycanın eyni tərəfdə olduğunu qabardır...***

- Rusiya və Azərbaycan həmişə dost ölkələr olub. Moskva və Bakının çoxlu sayda kəsişmə nöqtələri var. Həm siyasətdə, həm də iqtisadiyyatda. Rusiya ilə Azərbaycan arasında əlaqələr artır və möhkəmlənir, siyasi baxışların birgə təbliği artır.

***- Ermənistan parlamentinin spikeri bildirib ki, Bakının siyasi iradəsi olsa, 15 gün ərzində iki ölkə arasında sülh sazişi bağlana bilər. Bu nə deməkdir?***

- İrəvanın bu siyasi davranışı çoxdan müşahidə olunur. Qarşı tərəfin siyasi iradə nümayiş etdirməsi və qoyulan şərtlərlə razılaşması vacibdir.

Amma biz başa düşürük ki, Ermənistan özünü etibarsız hiss edir və Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanmasında Qərbin vasitəçiliyinə can atır. O, Qərbyönlü siyasi kurs seçdiyinə görə artıq Rusiyanı silib. Və Rusiyanın vasitəçiliyi ilə sülh müqaviləsi imzalamayacaq. Azərbaycan da bunu çox gözəl anlayır. O, başa düşür ki, Qərbin təlisinə düşmək olmaz, çünki Qərb özünü əsl vasitəçi kimi yox, vicdansız vasitəçi kimi aparır.

Ermənistan özünü daha inamlı hiss etmək üçün Qərbin vasitəçiliyini istəyir. Rusiya güclü vasitəçi olaraq qalır. Başqa bir məsələ də hansı tərəfin hansı qüvvəyə müraciət etməsidir. Ermənistan bu gün yalnız ABŞ-ın gücünə arxalanmağa çalışır.

Ermənistan sülh müqaviləsi məsələsində son sözü deməyə çalışır. Amma o bunu bacarmayacaq. Qərbin maskalarını tökməsi ilə Bakı mübarizəni davam etdirəcək. Rusiya və digər regional oyunçular öz suverenliklərini və regionun işlərinə kənar oyunçuların qarışmamasını müdafiə edərək, Bakının məntiqi ilə çıxış edəcəklər.

***Tərcümə - Elçin Bayramlı***

# "Efir mədəniyyəti aşağı olanlara qarşı tədbir görmək lazımdır"

## *EKSPERTLƏR NARAZILIQ EDİRLƏR*

Bəzən efirlərdə xoşagəlməz hallarla qarşılaşırıq. Dəvət edilən qonaqlar, ekspert qismində iştirak edən şəxslər bəzən etikadan kənar davranışlar sərgiləyir. Bu kimi hallara qarşı hansı addımlar atılmalıdır?

Mövzu ilə bağlı SİA-ya danışan Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekan müavini, filologiya üzrə fəlsəfə doktoru Sevinc Əliyeva bildirib ki, bu mövzuda ilk növbədə kanal rəhbərliyi tədbir görməlidir: "Etikadan kənar davranışların yol verilməməsinə birbaşa kanalın rəhbərliyi, redaktorlar və Azərbaycan Respublikası Audiovizual Şura cavabdehdir". S.Əliyevanın sözlərinə görə, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin müəllimləri tələbələrə etik normalara əməl etməyi öyrədir: "Amma çox təəssüf ki, təcrübə ancaq reytinqə işləməyi tələb edir. Bu da problem deyil, amma reytinqi daha maraqlı, daha əyləncəli, daha mədəni, daha gözəl əldə etmək olar".



BDU-nun Yeni media və kommunikasiya kafedrasının müəllimi Günel İsgəndər bildirib ki, təkcə jurnalistikada deyil, bütün peşə fəaliyyəti sahələrinin nümayəndələri azadlıq, fikir plüralizmi, söz azadlığı ilə "özbaşınalığı" səhv salanda və ya qarışdıranda proses pozulur: "Jurnalistika kütləvi sahə olduğu üçün prosesin pozulması daha tez nəzərə çarpır. Ölkəmizdə teleradio yayımı sahəsində yeniliklər və müsbət dəyişikliklər olsa da, nöqsan-problemlər, keyfiyyətsiz verilişlər də az deyil".

G.İsgəndər qeyd edib ki, teleradio fəaliyyəti əhalinin daimi olaraq birbaşa təmasda olduğu sahə olduğu üçün efirə dəvət olunan qonaqlar, ekspertlər, hətta aparıcılar da kamera obyektivinin verdiyi məsuliyyəti dərk etməlidirlər: "Veriliş reytinq alsın deyə efir məkanında xoşagəlməz hallara yol verib tamaşaçıya hörmətsizlik etmək təqdirəlayiq hal deyil. Bu tip halların qarşısını almaq üçün bütövlükdə efir prosesinə sırf peşəkarları cəlb etmək, efir mədəniyyəti aşağı olan aparıcı, qonaq, ekspertlərə qarşı tədbirlər görmək lazımdır".

***Rəşid Qarayev***

SON SƏHİFƏ

# SƏS

30 noyabr
2023-cü il

# Qızılcadan necə yan gəzək?

*AÇIQLANDI*

“Qızılcaya qarşı mübarizənin iki istiqaməti var. Biri profilaktik mübarizə, ikincisi isə yoluxma ocaqları meydana gəldikdən sonra bu ocaqların ləğv olması istiqamətində olan mübarizədir”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli deyib.

Müşfiq Məmmədli sözlərinə belə davam edib: ”Profilaktik mübarizə 1 yaşa qədər uşaqlar üçün ilkin peyvəndləmə, daha sonra 5-6 yaşda revaksinasiya olunur. Bu zaman qızılcaya qarşı dayanıqlı immunitet formalaşır. Bunun üçün İlkin Səhiyyə Xidməti buna uyğun şəraitdə peyvəndləndirmə aparılmalıdır. Əgər peyvəndlənmədə axsamaya yol verilirsə, bu, sonrakı 4,5 il ərzində, yaxud sonrakı 2-3-cü ilindən başlayaraq yoluxma halları daha da artıracaq. Bunlar onu göstərir ki, sonrakı mərhələlərdə bu cür proseslərlə qarşı-qarşıya qalmamaq üçün indidən vaksinasiya işi düzgün qurulmalıdır. Yoluxmalar olduqdan sonra isə qızılca daha çox 18 yaşa qədər olan şəxslərdə özünü biruzə verir. Amma orta yaş və yuxarı yaşda da qızılcaya yoluxma halları müvafiq olaraq müşahidə oluna bilər. Əgər bu cür hallar yaranıbsa öncədən tədbir görmək lazımdır.



Qızılcada səpkilər meydana çıxdıqdan sonra onun yoluxma intensivliyi azalır. Əsas yoluxma müddəti qızılca səpkiləri yaranmadan öncədir. Asqırma, öskürmə, temperatur 37 dərəcə olduqda əlamətlər biruzə verir.

Həmin şəxslər evdə yatmalıdır, həmin yerdə isə dezinfeksiya və havalandırma tədbirləri görülməlidir. Yoluxma çox olan yerlərdə isə sürətli vaksinasiya aparmalıyıq”.

**Ayşən Vəli**

# DİQQƏT: Cəmiyyətdə sosial problemlər nədən yaranır?



*SOSİOLOQ AÇIQLADI*



**Əsas sosial problemlər nədir? Cəmiyyətdə insanları narahat edən bir sıra sosial problemlər var. Bəs bu sosial problemləri yaradan səbəblər hansılardır?**

”Təhsil düzgün qurularaq, özünətəsdiq və gələcəyəinam məsələsinə diqqət yönəlməlidir. Bunlara diqqət yetirildikdə sosial problemlər yaranmayacaq. Hansı cəmiyyətdəki mənəvi dəyərlərə üstünlük verilir, həmin cəmiyyət özünü
ahəngdar olaraq tənzimləyir. Hansı cəmiyyətdəki mənəvi dəyərlər arxa pla-
na keçir, orada qarşıdurma yaranır”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Əhməd Qəşə-
moğlu bildirib. Ə.Qəşəmoğlu sosial problemlərin səbəbini iki mühüm məsələdə görür: ”Bütün
dünyada ən böyük sosial problem insanların özü-özünü təsdiq edə bilməməsidir. İki mühüm mə-
sələyə diqqət yetirməliyik: 1) İnsan həyata gəlibsə, özü-özünü təsdiq etsin. Buraya iş bacarığı,
qabiliyyəti kəşf etmək daxildir. 2) Gələcəkdən qorxmasın.

Bizdə ən böyük sosial problemlərdən biri, mənim fikrimcə, insanlarda özünəinam hissi, özü-
nütəsdiq etmək kimi problemlərdir. Bu suala kimsə ”işsizlik”, ”yoxsulluq” kimi cavablar verə bi-
lər. Elə ”işsizlik”, ”yoxsulluqda” bu problemlərdən yaranır. Yer üzərində elə bil vəziyyət yaranıb
ki, insanlar öz potensialından istifadə etmir. Hər insanın özünəməxsus müəyyən potensialı var,
amma bundan istifadə edilmir.

Sosioloq bu kimi problemlərin Azərbaycanı da bürüdüyünü bildirib: ”Bu problemlər Azərbay-
canda da öz əksini tapıb. 6,7 yaşa kimi uşaqların tərbiyəsində görüləcək işlərlə bağlı valideynlə-
ri maarifləndirmək lazımdır. Bununla bağlı ”Ömrün uğurlu bünövrəsi” adlı kitab yazmışam”.

Müsahib təhsildə olan sosial problemlərdən də söz açır: ”Təhsil sisteminə gəldikdə hər sinif
və qrupdakı uşaqların hamısı əla oxumur. Nəticədə biz bir şagirdi 11 il danlayırıq ki, ”sən bunu bacarmadın”, halbuki təhsil sistemi elə qurulmalıdır ki, biz həmin uşaqları kəşf edək. Ola bilər ki, sözügedən uşağın elmə deyil, idmana, hər-hansısa bir peşəyə qabiliyyəti var. O zaman demək olmaz ki, ”sən bacarıqsızsan, yarıtmazsan”.

Deməli, böyük sosial problemlərdən biri də təhsil sisteminin düzgün qurulmamasıdır. Təhsil sistemi qurulub ki, istedadlı, savadlılar seçilir, yerdə qalanlara əhəmiyyət verilmir. Özünəinam hissi, sabaha inam hissi olmayandan sonra bu kimi sosial problemlər yaranır”.

**Çinarə Muradova**


## ELAN

**“Sünbül” ASC-nin Səhmdarlarının nəzərinə!**

29 dekabr 2023-cü il saat 11:00-da səhmdarların illik ümumi yığıncağı keçiriləcəkdir.

*<u>İclasın gündəliyi:</u> 2022-ci ilin illik hesabatlarının təsdiqi.*

***Ünvan: Bakı şəhəri, Binəqədi r. 7-ci mik-n Abay Kunanbayev 151 “Kafe”. Tel: (050) 646-23-80***



# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. **Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
2. **Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
3. **Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
4. **Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
5. **Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
6. **Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
7. **F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
8. **Ziya LTD – 0124977696, 0503067744**

**<u>1 nüsxə 1 aylığı 13.20 AZN</u>**

**<u>6 aylıq 79.20 AZN</u>**

**<u>1 illik 158.40 AZN</u>**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Hərbi qulluqçuların pensiya yaşı niyə artırılır?

*MÜNASİBƏT*



“Əvvəllər Silahlı Qüvvələrdə zabitlər, gizirlər 20 il xidmət başa vurduqda pensiya ilə təminat hüququ alırdılar. İndiki mərhələdə hərbi xidmət keçmək haqqında qanunda dəyişiklik edilsə, Azərbaycan Respublikasının ”Hərbi qulluqçuların statusu haqqında” qanuna əlavələr və dəyişikliklər olunmalıdır. Bununla da, hərbi xidmət dönəmi 25 ilə qaldırıldıqdan sonra pensiya almaq hüququna malik olacaqlar”. Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Elxan Şıxəliyev deyib.

Onun sözlərinə görə, bu o deməkdir ki, indiki qanunvericiliyə qədər olan müddətdə hərbçilər - xüsusilə zabit və gizirlər, generallar 20 il xidmət edib, ehtiyata çıxıb pensiya təminatı ala bilirlərsə, indi bu 25 ilə doldurmalıdırlar: ”Yəni, 20 il öncə öz arzusu ilə, yaş yaxud sağlamlıq problemləri ilə bağlı zabitlər və gizirlər tərxis olunurdular”.

Qanunvericiliyə indiki mərhələdə bu dəyişikliyin edilməsi zərurətinin hansı səbəblərdən yarandığı məsələsinə gəldikdə isə ekspert bildirib ki, qanunvericiliyə təkliflər adətən qurumlar tərəfindən götürülür: ”Qurumlarda təklifləri qiymətləndirərək qanunvericilikdə dəyişikliklər həyata keçirilər. Müdafiə Nazirliyinin strukturlarında ”Hərbi qulluqçuların statusu haqqında” qanuna dəyişiklik etmək ehtiyacının yaranma səbəblərini nazirlik əsaslandırmalıdır. Əslində, düşünürəm ki, bunun indiki mərhələdə ehtiyac görülməsinə səbəb xüsusilə 20 il xidmət keçmiş kateqoriyaların çoxu 44 günlük müharibədə iştirak etmiş, döyüş və müharibə təcrübəsi olan kadr heyətlərinin təcrübəsindən yararlanmaq və sonrakı mərhələdə arxadan gələn kadr potensialının Silahlı Qüvvələrdə xidmət dövrünün uzadılmasına nail olmaqdan ibarətdir”.

E.Şıxəliyev sözlərinə davam edərək bildirib ki, bu mərhələdə bir çox məsələlər müzakirələrə səbəb olacaq: ”Xüsusilə də bu qanunun hansı kateqoriyaya aid olması məsələsi müzakirə olunacaq. Sonrakı mərhələdə 20 il xidmət əvəzinə kadr potensialı 25 il xidmət dövründən sonrakı əmək pensiyalarının haqq qazanmaları nəzərə alınacaq”.

**Ləman Sərraf**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**